## AZƏRBAYCAN YÜKSƏK İNVESTİSİYA CƏLBEDİCİLİYİNƏ MALİK ÖLKƏYƏ ÇEVRİLİB

Son 15 ildə müstəqil Azərbaycanın müsbət mənzərəsini səciyyələndirən əsas məqamlardan biri ölkəmizin maliyyə imkanlarının genişlənməsi, o cümlədən də müxtəlif mənbələrdən milli iqtisadiyyatımıza yönəldilən sərmayələrin həcminin artması ilə bağlı olub. Bəhs olunan dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Azərbaycanın sərmayə cəlbediciliyi əhəmiyyətli dərəcədə artıb və respublikamıza 260 milyard dollardan çox...



Bax səh. 3

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB

Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının prezidenti Lilian Mori Paske sentyabrın 11-də Şəhidlər xiyabanına gedərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüb.

AZƏRTAC xəbər verir ki, sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.





Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 12 sentyabr 2019-cu il, cümə axşamı / № 166 (5541). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Rusiyanın Sverdlovsk vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



### Azərbaycanın bölgələrində fındıqçılığın inkişafı daim dövlətin diqqət mərkəzindədir

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan inkişaf yolunda inamla irəliləyir, möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir. Bütün sahələrdə yüksək inkişaf göstəricilərinin əldə olunması fonunda gələcəyə dair optimist proqnozlar verilir, ölkəmizin qarşısında yeni perspektivlərin açıldığı vurğulanır. Azərbaycanın dinamik tərəqqisindən bəhs edərkən, heç şübhəsiz, regionların sosial-iqtisadi inkişafı istiqamətində...

Bax səh. 8

### "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub

Sentyabrın 9-da Dənizkənarı Milli Parkda "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub. AZƏRTAC xəbər verir ki, "Nargis" Nəşriyyat Evi ətraf mühitin qorunması probleminə həsr edilmiş...



Bax səh. 2

### Azərbaycanda məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar Avropa Şurası tərəfindən təqdir edilir

Sentyabrın 11-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Qaralov Azərbaycanda...

Bax səh. 5

### *Maliyyə Nazirliyi*: Dövlət borcunun və zəmanətlərinin uçotu daha effektiv aparılacaq

Prezident İlham Əliyevin 2018-ci il 24 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" ilə müəyyən edilmiş tapşırığın icrası...



Bax səh. 2



## LİLİAN MORİ PASKİE: AŞPA AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Sentyabrın 11-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskie ilə görüşüb. AZƏRTAC xəbər verir ki, sədr bu səfərin ikitərəfli münasibətlərin daha da...

Bax səh. 2

## MİLLİ MƏCLİSİN MÜDAFİƏ, TƏHLÜKƏSİZLİK VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ KOMİTƏSİNİN İCLASI KEÇİRİLİB

Sentyabrın 11-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara işlərində uğurlar diləyib. Komitə sədri bildirib ki, iclasın gündəliyindəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunur. Məlumat verilib ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2-ci maddəsinə edilən dəyişiklikdə təklif olunur ki, "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş...

Bax səh. 2



## BAKIDA "AZƏRBAYCANDAKI SİYASİ PROSESLƏRƏ XARİCİ MÜDAXİLƏLƏRİN YOLVERİLMƏZLİYİ" MÖVZUSUNDA "DƏYİRMİ MASA" KEÇİRİLİB

Sentyabrın 11-də Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda "dəyirmi masa" keçirilib...

Bax səh. 4

### ADU və Ural Federal Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Sentyabrın 11-də Bakı Biznes Mərkəzində Azərbaycan Dillər Universiteti (ADU) ilə Boris Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqavilə tərəflər arasında təhsil və elm sahəsində uzunmüddətli əməkdaşlıq, tədris prosesində elmi nailiyyətlərin tətbiqi və təcrübə mübadiləsi, bərabərlik, qarşılıqlı fayda əldə edilməsi, qarşılıqlı anlaşma, hörmət və etibar prinsipləri əsasında...

Bax səh. 6

### Şəhərtipli müasir Badamlı qəsəbəsi

Ulu Öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi olan müasir Badamlı qəsəbəsində şəhər infrastrukturu yaradılıb. Aparılan quruculuq işləri qəsəbəni yeni inkişaf mərhələsinə çıxarıb. Qəsəbədə yerləşən yaşayış binalarının və avtomobil yolunun yenidən qurulması...



Bax səh. 6

### YAP-ın nümayəndə heyəti ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsində görüş keçirib

Yeni Azərbaycan Partiyası (YAP) ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin 20 illiyi münasibətilə Çin Xalq Respublikasında...



Bax səh. 4

### Azərbaycanın Sverdlovsk vilayəti ilə iqtisadi əməkdaşlığının genişləndirilməsi müzakirə olunub

Sentyabrın 11-də İqtisadiyyat naziri Şahin Mustafayev Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşevin...



Bax səh. 5

### Təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilib

Sentyabrın 11-də təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilib. Konfransda ötən tədris ilinin yekunları müzakirə edilib, 2019-2020-ci dərs ilinin prioritet istiqamətləri...



Bax səh. 5

### Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasiminin yoxlama məşqi olub

Bakının ev sahibliyi edəcəyi bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasiminin sentyabrın 11-də...



Bax səh. 8

# Prezident İlham Əliyev Rusiyanın Sverdlovsk vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişlənməsinin məmnunluq doğurduğu bildirilib.

Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirilib, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulanıb. Eyni zamanda, Bakıda keçiriləcək biznes forumun əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirilib.

Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edilib.

# Sverdlovsk vilayətinin nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşovun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 11-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Lilian Mori Paskie: AŞPA Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır



Sentyabrın 11-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskie ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, sədr bu səfərin ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə təkan verəcəyinə inamını söyləyib. Bildirilib ki, Azərbaycan AŞPA ilə hərtərəfli əlaqələrin dərinləşməsinə böyük önəm verir. 2001-ci ilin yanvarından Avropa Şurasına tamhüquqlu üzv olan Azərbaycan hüquqi, demokratik dövlət quruculuğu prosesində Avropa Şurası və onun qurumlarının dəstəyini hiss edib. Qarşılıqlı əməkdaşlıq istiqamətində ötən dövr ərzində xeyli işlər görülüb. Təəssüf ki, bəzən müəyyən anlaşılmazlıq və ermənilərin məqsədlərinə xidmət edən lobbiçilik fəaliyyəti göstərən bir sıra deputatların qərəzli hərəkətləri ucbatından qurumda bir sıra məsələlərə ikili standartlarla yanaşmanın şahidi oluruq. Biz inanırıq ki, gələcəkdə belə xoşagəlməz hallar aradan qalxacaq, müzakirə doğura biləcək məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün normal şərait yaranacaq.

Oqtay Əsədov qeyd edib ki, ölkəmizdə bütün istiqamətlər üzrə islahatlar uğurla davam etdirilir. Azərbaycanda Avropa hüquq sisteminin təməl prinsiplərini özündə əks etdirən qanunvericilik bazası formalaşdırılıb. Ölkədə imzalanmış 65 əfv Sərəncamına və 11 amnistiya aktına uyğun olaraq 40 min nəfər məhkum cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıb. Azərbaycan Prezidentinin cari ilin martında imzaladığı əfv Fərmanı 431 nəfərə şamil olunub.

Ölkəmizdə etnik və dini tolerantlıq hökm sürməkdədir. Məscidlər, kisələr, sinaqoqlar dinc fəaliyyət göstərir. Biz gələcəkdə də AŞPA, o cümlədən bütün beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndərilməsində maraqlıyıq.

AŞPA prezidenti xanım Lilian Mori Paskie təmsil etdiyi qurumun ölkəmizlə əlaqələrin inkişafında maraqlı olduğunu deyib. Bildirilib ki, azərbaycanlı deputatlar təşkilatın struktur qurumlarında və keçirilən tədbirlərdə daim fəal iştirak edir, müzakirə olunan məsələlərə öz münasibətlərini bildirir, maraq doğuran əhəmiyyətli təkliflərlə çıxış edirlər. Qonaq AŞPA-nın xətti ilə ölkəmizə səfər edən təşkilat nümayəndələrinə yaradılan şəraitə görə Milli Məclisin rəhbərliyinə öz təşəkkürünü bildirib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞPA-da daimi nümayəndə heyətimizin başçısı Səməd Seyidov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

# "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub






Sentyabrın 9-da Dənizkənarı Milli Parkda "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, "Nargis" Nəşriyyat Evi ətraf mühitin qorunması probleminə həsr edilmiş sərgi təşkil edib. Layihə çərçivəsində səkkiz heykəltəraş müxtəlif istehsalat tullantılarından qurulmuş 13 instalyasiya təqdim olunub. Sərgi "Nargis" jurnalının "Ekologiya" mövzusuna həsr olunmuş 63-cü nömrəsi ilə eyni vaxta təsadüf edib. Jurnal, üz qabığında - IDEA-nın təsisçisi Leyla Əliyevanın fotosu ilə nəşr edilib.

"Nargis" komandası - ətraf mühitə laqeyd olmayan insanlardır. "Nargis" ekoloji brendləri dəstəkləyir, təbii sərvətlərə qənaət edir, eyni zamanda, geniş oxucu kütləsi qazanmış bir nəşr olaraq, hər birimizin Ana-Yer kürəsinin qorunmasını təşviq və təbliğ etməkdə öz məsuliyyətini hiss edir.

"Make the Earth Smile" adlı ekoloji layihə - insanın həyat fəaliyyətinin 13 ən vacib, Yer kürəsinə xüsusilə zərər verən böhranlı sahəsini özündə əks etdirən 13 instalyasiyadan ibarətdir. Layihənin məqsədi - gənc nəsli müsbət nəticələrlə yekunlanan yeni həyat tərzinə alışdırmaqdır. Sərgidə ətraf mühitə kömək etmək üçün hər birimizə tövsiyə olunan 13 faydalı vərdiş təsvir edilmiş "Nargis" kitabçaları paylanıb. 13 rəqəmi təsadüfən seçilməyib - 13 dekabrda "Nargis" jurnalı öz ad gününü qeyd edir.

Rəşad Ələkbərov, Orxan Hüseynov, Kənan Əliyev, Sabit Zamanov, Teymur Qəribov, Fərid Rəsulov, Nurəli Şahbazov, Nazim Şükürov öz instalyasiyalarını onlara tərəfdaşlıq edən Aquavita, Ay Qonşu, "AzərEnerji", "Azersun", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Baku Steel Company", "Caspian Drilling Company Ltd", "Coca-Cola", Dr. Cahid Şahbazov, "Gilan Holding", "Nargis" Publishing House və "Veysəloğlu" Şirkətlər Qrupu ilə birgə yaradıblar.

Açılışa Leyla Əliyeva, "Nargis"in tərəfdaşları və dostları, xarici ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr, nazirliklərdən nümayəndələr, sənətkarlar və qalereya sahibləri də daxil olmaqla 150-yə yaxın insan qatılıb. Sərgini ziyarət edən Təhsil naziri Ceyhun Bayramov təhsil sistemi çərçivəsində "Nargis" Nəşriyyat Evi ilə gələcək əməkdaşlıq üçün ekoloji layihə təklif edib. Daha sonra başda Ülviyyə Mahmudova olmaqla "Nargis" Nəşriyyat Evinin komandası bulvarda zeytun ağacı əkib.

Bu, "Nargis" komandasının təşkil etdiyi ilk sərgi deyil: bu ilin aprel ayında İstanbulda, "Nargis" Nəşriyyat Evi, jurnalın mövcud olduğu altı il ərzində çəkdiyi eksklüziv fotoşəkillərdən ibarət sərgi təqdim etmişdi, iyul ayında isə Bakıdakı Müasir İncəsənət Muzeyində "Women, Children and Well-Being" adlı xeyriyyə sərgisi keçirmiş və foto satışından əldə olunan pulun bir hissəsini "Nargis" xeyriyyə fonduna yönəltmişdir.

"Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək. Giriş sərbəstdir.

# Maliyyə Nazirliyi: Dövlət borcunun və zəmanətlərinin uçotu daha effektiv aparılacaq



Prezident İlham Əliyevin 2018-ci il 24 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" ilə müəyyən edilmiş tapşırığın icrası məqsədilə Maliyyə Nazirliyi ilə Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) arasında Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi (DMFAS) Proqramının satın alınması və tətbiqi barədə layihə sənədi imzalanıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, icra müddəti 36 ay olan layihə Asiya İnkişaf Bankı (ADB) və İqtisadi İşlər üzrə Dövlət Katibliyinin (SECO) maliyyə dəstəyi (qrant şəklində) ilə həyata keçiriləcək. Layihə çərçivəsində proqram təminatının Maliyyə Nazirliyinin daimi istifadəsinə verilməsi və qurumun əməkdaşlarına müvafiq təlimlərin keçirilməsi nəzərdə tutulur.

Layihə müasir informasiya texnologiyalarının tətbiq edilməsi ilə dolğun borc məlumatlarının etibarlı saxlanılması, daha səmərəli şəkildə idarə edilməsi, eləcə də borc məlumatlarının daha effektiv təhlili əsasında funksional çərçivə üzrə strateji məqsədlərə nail olmağa töhfə verəcək. Bununla yanaşı, layihə dövlət borcunun və zəmanətlərin hesabatlılığının da təkmilləşdirilməsini hədəfləyir.

UNCTAD-ın Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi - DMFAS Proqramının əsas məqsədi davamlı iqtisadi inkişaf, idarəetmənin təkmilləşdirilməsi və yoxsulluğun azaldılması məqsədilə dövlət borclarının daha səmərəli şəkildə idarə edilməsini təmin etməkdir. Eyni zamanda, DMFAS borc idarəetmə prosedurlarını asanlaşdırır və beynəlxalq və ölkə səviyyəsində hesabatların daha şəffaf və dəqiq hazırlanmasına şərait yaradır.

Hazırda DMFAS proqramı 60-dək ölkənin maliyyə nazirliklərinə və mərkəzi banklarına istehsal qabiliyyətlərinin artırılması istiqamətində borc məlumatlarının etibarlı şəkildə idarə edilməsinə dəstək verir.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib




Sentyabrın 11-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara işlərində uğurlar diləyib.

Komitə sədri bildirib ki, iclasın gündəliyindəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunur.

Məlumat verilib ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2-ci maddəsinə edilən dəyişiklikdə təklif olunur ki, "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin. Eyni məzmunlu düzəlişlər bu qanunun 7-ci maddəsində və "Əmək pensiyaları haqqında" qanunun 21.2.3-cü maddəsində də nəzərdə tutulub. Həmçinin "hərbi qulluqçular" anlayışının məzmunu yenilənərək "Azərbaycan Respublikası Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət edən hərbi rütbəli şəxslər" kimi verilir.

Diqqətə çatdırılıb ki, layihə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 12 oktyabr tarixli qanunun icrasını təmin etmək məqsədilə hazırlanıb. Həmin qanunda hərbi qulluqçuların yalnız Azərbaycan Respublikasının Silahlı Qüvvələrində deyil, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında da (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət keçməsi müəyyən olunub. Təklif edilən dəyişikliklər belə qurumların hərbi qulluqçularının dövlət icbari şəxsi sığortası və pensiya təminatının əvvəlki qaydada saxlanılmasına xidmət edir.

Sonra Ziyafət Əsgərov bildirib ki, cari ilin yaz və növbədənkənar sessiyalarında komitənin 10 iclası keçirilib, 17 qanun layihəsi plenar iclasa tövsiyə olunub və qəbul edilib. Payız sessiyasında "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və digər qanun layihələrinə baxılması nəzərdə tutulub.

İclasda çıxış edən komitə üzvləri Elman Məmmədov, Aqil Abbas, Hikmət Məmmədov, Fərəc Quliyev qanunlara edilən dəyişiklikləri məqbul hesab ediblər. Deputatlar dövlət tərəfindən hərbi sahəyə, hərbi qulluqçulara göstərilən diqqət və qayğını təqdir ediblər. Ordumuzun döyüş ruhunun yüksək olduğunu söyləyiblər.

Müzakirələrdən sonra "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Altay Həsənov: Əsas hədəfimiz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaqdır




Sentyabrın 16-dan 22-dək Bakıda bədii gimnastika üzrə dünya çempionatı keçiriləcək. Ölkəmizdə ilk dəfə bədii gimnastika üzrə dünya birinciliyi 2005-ci ildə keçirilib. Birinci dəfə idi ki, Azərbaycan Olimpiya idman növü üzrə dünya çempionatına ev sahibliyi edirdi. Həmin vaxtdan sonra biz dəfələrlə Avropa çempionatları, dünya kuboku yarışları keçirmişik və müəyyən təcrübə toplamışıq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov sentyabrın 11-də dünya çempionatının açılış mərasiminin yoxlama məşqi zamanı jurnalistlərə müsahibəsində deyib.

A.Həsənov bildirib: **"Dünya çempionatına tam hazırıq. İnanırıq ki, çempionat yüksək səviyyədə təşkil olunacaq. Bakıda keçiriləcək yarışa maraq böyükdür. Biletlərin 45 faizi xaricdən alınıb. Dünya çempionatında 61 ölkədən gimnastlar iştirak edəcəklər. İnanıram ki, yarışları izləyən tamaşaçılar bizim komandaya fəal dəstək verəcəklər. Ona görə də media vasitəsilə hamını bu gözəl idman bayramına dəvət edirəm".**

Gimnastlarımızın dünya çempionatına hazırlığından danışan Altay Həsənov deyib: **"Əsas hədəfimiz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaqdır. Bilirsiniz ki, bu dünya çempionatı Tokioda keçiriləcək Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Bu baxımdan çempionatda uğur qazanmaq bizim üçün çox vacibdir".**

# Azərbaycan yüksək investisiya cəlbediciliyinə malik ölkəyə çevrilib

***Prezident İlham Əliyev:*** *Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb*

*Son 15 ildə müstəqil Azərbaycanın müsbət mənzərəsini səciyyələndirən əsas məqamlardan biri ölkəmizin maliyyə imkanlarının genişlənməsi, o cümlədən də müxtəlif mənbələrdən milli iqtisadiyyatımıza yönəldilən sərmayələrin həcminin artması ilə bağlı olub. Bəhs olunan dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Azərbaycanın sərmayə cəlbediciliyi əhəmiyyətli dərəcədə artıb və respublikamıza 260 milyard dollardan çox investisiya yönəldilib ki, bu da kifayət qədər böyük məbləğdir.*



Azərbaycandakı uzunmüddətli daxili sabitlik, güclü iqtisadi potensial, dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan müasir infrastruktur, müxtəlif tanıtım tədbirləri ölkəmizin sərmayə cəlbediciliyinin artmasına müsbət təsir göstərən amillərdir. Eyni zamanda, yeni şəraitdə Prezident İlham Əliyevin aldığı mühüm qərarlara uyğun olaraq intensiv şəkildə reallaşdırılan islahatlar da ölkəmizin investisiya cəlbediciliyinin artmasında mühüm rol oynayır. Dövlətimizin başçısı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində söylədiyi nitqində bu məqama diqqət çəkərək vurğulayıb: **"Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb".**

## YENİ ŞƏRAİTDƏ REALLAŞDIRILAN İSLAHAT TƏDBİRLƏRİ SIRASINDA İNVESTİSİYALARIN TƏŞVİQİ MEXANİZMİNİN İŞƏ SALINMASI BÖYÜK ƏHƏMİYYƏT DAŞIYIR

Respublikamızın investisiya cəlbediciliyinin artmasından söhbət açarkən sərmayələrin qorunması üçün hüquqi bazanın möhkəmləndirilməsinin önəmini ayrıca qeyd etmək lazımdır. Prezident İlham Əliyevin iqtisadiyyatın yeni şəraitdə inkişafının təmin edilməsi məqsədilə imzaladığı sənədlər içərisində investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması məqsədilə 2016-cı il 18 yanvar tarixli "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Fərmanı xüsusi yer tutur. Bu Fərmanla "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiqlənib. Qaydalarda ölkənin investisiya cəlbediciliyinə nail olmaq üçün böyük güzəştlər nəzərdə tutulub.

Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixində imzaladığı "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında müvafiq Fərman da ölkəmizin investisiya cəlbediciliyinin yüksəldilməsinə xidmət edən vacib sənəddir. Dövlət başçısının 5 sentyabr 2016-cı il tarixində imzaladığı növbəti Fərmanla isə "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmana müəyyən dəyişikliklər edilib.

*"Azərbaycan ənənəvi olaraq enerji sektorunun inkişafına böyük diqqət göstərir. Ancaq bizim əsas məqsədimiz qeyri-enerji sektorunun inkişafıdır. Bir sözlə, iqtisadiyyatın şaxələndirilməsi bizim üçün prioritetdir və son illərdə bu istiqamətdə addımlar atılıb"*

Prezident İlham Əliyev 2 iyun 2017-ci il tarixində "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi barədə müvafiq Sərəncam imzalayıb. Sənəddə ölkənin investisiya cəlbediciliyinin artırılması üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin davam etdirilməsinə hesablanan bir sıra mühüm müddəalar öz əksini tapıb.

Ölkəmizin investisiya cəlbediciliyinin artırılmasına hesablanan sənədlərdən biri də "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixində imzaladığı müvafiq Sərəncamdır. Sənəddə qeyd olunub ki, qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək üçün bu sahəyə birbaşa xarici investisiyalar cəlb etməklə daxili istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində strateji məqsədlər olaraq müəyyən edilib. Sərəncamda ölkənin investisiya cəlbediciliyinin artırılması ilə bağlı müəyyənləşdirilən strateji məqsədlərə çatmaq, o cümlədən də ölkədə istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsullar istehsalının təşkili üçün "Azərbaycanda ilk" ("First in Azerbaijan") investisiya təşviqi mexanizminin, eləcə də ölkə iqtisadiyyatına birbaşa investisiyalar cəlb edilməsinin dəstəklənməsi məqsədilə "Azərbaycana sərmayə" ("Invest in Azerbaijan") mexanizmlərinin tənzimlənməsi Qaydası" ilə bağlı mühüm müddəalar yer alıb.

*"Sərmayə qoyuluşu məsələləri ilə bağlı çox böyük işlər görülür. Həm neft-qaz sektoruna, həm qeyri-neft sektoruna on milyardlarla dollar sərmayə qoyulmuşdur"*

## QEYRİ-NEFT SEKTORUNA BÖYÜK HƏCMLƏRDƏ SƏRMAYƏ QOYULUŞU ÖLKƏNİN İQTİSADİ POTENSİALINI ARTIRAN ƏSAS AMİLLƏRDƏN BİRİ QİSMİNDƏ ÇIXIŞ EDİR

Məlumdur ki, son illərdə ayrı-ayrı ölkələr və milli iqtisadiyyatlar mütəmadi olaraq qlobal mənfi şokların təsirini öz üzərlərində hiss ediblər. Belə təzyiqlər, əlbəttə ki, inkişaf meyillərini səngidir. Azərbaycan isə qlobal iqtisadi şokların təsirinə daha az məruz qalan ölkədir. Bu da ilk növbədə o amillə şərtlənir ki, son 15 ildə respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü siyasət aparılıb. Belə ki, ötən 15 ildə ölkənin neft-qaz satışından əldə etdiyi gəlirlər məqsədyönlü şəkildə neftdənkənar iqtisadiyyatın inkişafına yönəldilib. Eyni zamanda, qeyri-neft sektorunda istehsal imkanlarının genişləndirilməsinə möhkəm hüquqi baza yaradılıb, genişmiqyaslı təşviq tədbirləri görülüb. Prezident İlham Əliyev 2019-cu il 31 may tarixində Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-Polşa biznes forumunda söylədiyi nitqində qeyri-neft sektorunun inkişafının ölkəmiz üçün prioritet olduğunu növbəti dəfə nəzərə çatdıraraq vurğulayıb: **"Azərbaycan ənənəvi olaraq enerji sektorunun inkişafına böyük diqqət göstərir. Ancaq bizim əsas məqsədimiz qeyri-enerji sektorunun inkişafıdır. Bir sözlə, iqtisadiyyatın şaxələndirilməsi bizim üçün prioritetdir və son illərdə bu istiqamətdə addımlar atılıb".**

Ölkəmizdə qeyri-neft iqtisadiyyatının üstün inkişafını hədəfləyən siyasət öz müsbət nəticəsini verir. Həyata keçirilən bu və ya digər tədbirlərin nəticəsində neftdən asılılıq əhəmiyyətli dərəcədə aradan qaldırılıb. Başqa sözlə desək, aparılan uğurlu şaxələndirmə siyasəti Azərbaycan iqtisadiyyatının inkişafına yeni impuls verib. Ölkədə reallaşdırılan məqsədyönlü siyasət sayəsində son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafının neft sektorunun artım dinamikasını üstələməsi məmnunluq doğurur. Bir vaxtlar ölkədə istehsal olunan ümumi daxili məhsulda neft sektorunun çəkisi 80 faiz civarında idi. Hazırda isə ÜDM-də qeyri-neft sektorunun payı 70 faizə çatıb.

Milli iqtisadiyyatımızda 2019-cu ilin birinci yarısında da qeyri-neft sektorunda yüksək inkişaf göstəriciləri qeydə alınıb. Belə ki, cari ilin ilk 6 ayında iqtisadiyyatımız 2,4 faiz, qeyri-neft sektorumuz isə 3,2 faiz artıb. Ən yüksək inkişaf göstəricisi 15,7 faiz olmaqla qeyri-neft sənayesində qeydə alınıb. O cümlədən qeyri-neft sektorunun mühüm bir qolu olan kənd təsərrüfatında cari ilin birinci yarısında 13 faiz artım müşahidə edilib.

Əvvəlki illərdə və 2019-cu ilin birinci yarısında ölkəmizdə qeyri-neft iqtisadiyyatının dinamik inkişafına müsbət təsir göstərən amillər sırasında bu sahəyə investisiya qoyuluşunun artmasının önəmini xüsusi vurğulamaq lazımdır. Bu, bir aksiomdur ki, zəruri şərtlər, həmçinin güclü maliyyə təminatı yaradılmadan real sektorun inkişafına da nail olmaq mümkün deyil. Bir qədər bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədəki çıxışında dövlət başçısı 2019-cu ilin birinci yarısında ölkəmizə yönəldilən investisiyaların böyük hissəsinin məhz neftdənkənar iqtisadiyyata qoyulmasından məmnunluğunu bildirərək vurğulayıb: **"Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir".**

Mütəxəssislərin qənaəti belədir ki, qeyri-neft sektoruna böyük həcmlərdə sərmayə qoyuluşu ölkənin iqtisadi potensialını artıran əsas amillərdən biri qismində çıxış edir. Deyilənlər baxımından respublikamızda reallaşdırılan sənaye layihələrinin önəmini ayrıca vurğulamaq lazımdır. Son illərdə respublikamızda uğurla reallaşdırılan iri sənaye layihələrindən biri "SOCAR Polymer"dir. Layihənin reallaşdırılmasına həm daxili, həm də xarici mənbələrdən investisiyalar yönəldilib. Müəssisəyə cəlb olunan investisiyaların 60 faizi Rusiyanın "Gazprombank", qalan hissəsi isə müvafiq olaraq "SOCAR", "Vitol", "Paşa Holdinq", "Gilan Holdinq" və "Azərsun Holdinq" tərəfindən təmin edilib. İlkin qiymətləndirmələrə görə, "SOCAR Polymer" zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 15 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 14 faizdən çox artıracaq.

Respublikamızda 2019-cu ildə istifadəyə verilən "SOCAR karbamid" zavodunun tikintisinə də böyük həcmlərdə investisiyalar yönəldilib. Dəyəri təxminən 800 milyon avro təşkil edən "SOCAR karbamid" zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Eyni zamanda, istehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək.

Hazırda Pirallahı Sənaye Parkında investisiya dəyəri 100 mln. ABŞ dollarından artıq olan müxtəlif təyinatlı istehsal müəssisələrinin yaradılması işləri aparılır. Bir qədər bundan əvvəl Sənaye Parkında investisiya dəyəri 9,5 milyon manat olan şpris zavodu işə salındı. Müəssisənin illik istehsal gücü 150 milyon şprisdir. Burada istehsal edilən məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, Rusiya, Gürcüstan, İran və Orta Asiya ölkələrinə ixrac ediləcək. Bu isə "Made in Azerbaijan" brendi ilə ixrac olunan məhsulların çeşidini və həcmini artırmağa imkan verəcək.

*"Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub"*

Yeri gəlmişkən, yuxarıda bəhs olunan müşavirədə iqtisadiyyat naziri Şahin Mustafayev ölkə üzrə yaradılan 9 sənaye parkı və məhəllələri haqqında qısa məlumat verib. Onun bildirdiyinə görə, sənaye pakları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq qoyulub və bu layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb.

İqtisadiyyat naziri həmçinin regionlarda aqrar sektorda iri təsərrüfatların yaradılmasına da böyük həcmlərdə investisiyaların yönəldildiyini diqqətə çatdırıb. Ş.Mustafayev deyib ki, dövlət başçısının tapşırığına uyğun olaraq 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Artıq nəticələr var. İyirmi iki aqropark faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq.

İqtisadiyyat naziri onu da bildirib ki, investisiyaların təşviqi sahəsində görülən işlər də regionların inkişafına müsbət təsir göstərir və investisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bu günədək 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub.

## MİLLİ İQTİSADİYYATIMIZA QOYULAN XARİCİ İNVESTİSİYALARIN ARTMASI ÖLKƏMİZƏ OLAN İNAMIN İFADƏSİDİR

Azərbaycan iqtisadiyyatına sərmayələr müxtəlif mənbələrdən yönəldilir. Ölkəmizə qoyulan investisiyaların strukturunda xarici sərmayələrin çəkisi də kifayət qədər böyükdür. Milli iqtisadiyyatımıza xarici sərmayə qoyuluşunun artması ölkəmizə olan inamı ifadə edir. Prezident İlham Əliyev Azərbaycan-Polşa biznes forumundakı nitqində xarici sərmayələrin qorunmasının hər bir ölkə üçün önəmli olduğuna diqqət çəkərək **"Sərmayə qoyuluşu məsələləri ilə bağlı çox böyük işlər görülür. Həm neft-qaz sektoruna, həm qeyri-neft sektoruna on milyardlarla dollar sərmayə qoyulmuşdur. Xarici sərmayələr lazımi səviyyədə qorunur və hər bir ölkə üçün bu, önəmlidir. Çünki biznes mühitinin yaxşılaşdırılması nəticəsində həm iş adamları özlərini daha rahat hiss edirlər, həm də dövlətlər daha böyük fayda götürür"**, - deyə vurğulayıb.

Azərbaycanda əlverişli investisiya mühitinin yaradılmasının məntiqi nəticəsidir ki, hazırda respublikamızda xarici investorların iştirakı ilə çoxsaylı layihələr reallaşdırılır. Azərbaycanın Pirallahı Sənaye Parkında İranın "TPİCO Holdinq" Şirkətlər Qrupunun iştirakı ilə "Caspian Pharmed" əczaçılıq zavodunun təməli qoyulub. Müəssisə 5 hektar ərazidə inşa olunur. Əczaçılıq zavodunun yaradılmasına ilkin mərhələdə 20,6 milyon ABŞ dolları həcmində investisiya qoyulacaq. Azərbaycan və İran şirkətlərinin müştərək layihəsi əsasında Neftçala Sənaye Məhəlləsində avtomobil zavodu yaradılıb və 2018-ci ildə müəssisədə avtomobil istehsalına başlanılıb.

*"Xarici sərmayələr lazımi səviyyədə qorunur və hər bir ölkə üçün bu, önəmlidir. Çünki biznes mühitinin yaxşılaşdırılması nəticəsində həm iş adamları özlərini daha rahat hiss edirlər, həm də dövlətlər daha böyük fayda götürür"*

Son illərdə qonşu Rusiyadan Azərbaycana yönəldilən investisiyaların həcmi getdikcə artır. Hazırda Azərbaycan bazarında təxminən 700 birgə müəssisə var ki, onlardan da üçdəbiri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Gəncə Avtomobil Zavodunun Rusiyanın "Kamaz" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin həyata keçirilməsi qarşılıqlı sərmayə yatırılması baxımından böyük əhəmiyyət daşıyır.

Azərbaycana yönəldilən investisiyaların böyük bir qismi Avropa İttifaqı ölkələrinin payına düşür. Almaniya, Fransa, İtaliya və digər ölkələri təmsil edən şirkətlər Azərbaycana böyük məmnuniyyətlə iri həcmlərdə sərmayələr yönəldirlər. Qeyd edək ki, respublikamız Aİ məkanında olan 9 dövlətlə strateji tərəfdaşlıq müqavilələri imzalayıb. Avropa İttifaqı ölkəmizin əsas xarici ticarət tərəfdaşıdır. Avropa İttifaqının Azərbaycanın xarici ticarətində payı 42% təşkil edir. 2018-ci ildə Aİ ölkələri ilə ticarət dövriyyəsi 13 milyard dollara çatıb. Ümumiyyətlə, müstəqillik dövründə Aİ-dən Azərbaycan iqtisadiyyatına 25 milyard dollara yaxın investisiya yatırılıb. Azərbaycanda Aİ ölkələrinin 1500-dən çox şirkəti fəaliyyət göstərir.

Azərbaycanda 2019-cu ilin əvvəlindən bəri müşahidə edilən və özlüyündə çox böyük önəm daşıyan tendensiyalardan biri də məhz ondan ibarətdir ki, bəhs olunan dövrdə xarici dövlətlərin, nüfuzlu beynəlxalq təşkilatların ölkəmizə təşrif gətirən yüksək səviyyəli rəsmiləri, həmçinin ayrı-ayrı transmilli şirkətlərin və maliyyə qurumlarının rəhbərləri respublikamızla iqtisadi sahədə əməkdaşlığı dərinləşdirməkdə, müxtəlif istiqamətlərə investisiyalar yönəltməkdə maraqlı olduqlarını bildirirlər. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cari il iyulun 10-da Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib. Qəbulda xüsusi olaraq vurğulanıb ki, 170 min şirkətin birləşdiyi MEDEF-in böyük tərkibdə nümayəndə heyətinin Azərbaycana gəlməsi fransız biznes ictimaiyyətinin ölkəmizə olan marağının göstəricisidir. Respublikamıza belə böyük maraq həmçinin mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-Polşa biznes forumunda və digər tədbirlərdə ifadə olunub.

Dünyanın iqtisadi nəhənglərindən olan Çinin şirkətləri də Azərbaycanda reallaşdırılan müxtəlif layihələrdə fəal iştirak etmək istəyindədirlər. Azərbaycan-Çin iqtisadi-ticarət əlaqələri inkişaf edir, əlverişli biznes mühitinə malik Azərbaycanda müxtəlif sahələr üzrə Çin şirkətləri fəaliyyət göstərir, birgə layihələr reallaşdırılır. Çin şirkətlərinin Azərbaycan iqtisadiyyatına marağının artmasının nəticəsi olaraq, "China CAMCE Engineering Co. Ltd." şirkəti və müvafiq sahələrdə fəaliyyət göstərən Azərbaycan şirkətləri arasında əməkdaşlıq barədə sənədlər imzalanıb. Bir qədər bundan əvvəl şirkəti təmsil edən nümayəndə heyəti respublikamıza gəlib. İqtisadiyyat Nazirliyində aparılan müzakirələrdə "China CAMCE Engineering Co. Ltd." şirkətinin vitse-prezidenti V.Yuhanq Çin iş adamlarının Azərbaycandakı əlverişli biznes və investisiya mühitinə maraq göstərdiyini diqqətə çatdırıb, təmsil etdiyi şirkətin fəaliyyəti, ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan layihələri barədə məlumat verib. Görüşdə "China CAMCE Engineering Co. Ltd." şirkəti ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda aqrar-sənaye parkının yaradılması, birgə emal müəssisələrinin təşkili, sənaye parklarında və məhəllələrində iştirak, kənd təsərrüfatı və məişət texnikasının istehsalı sahələrinin yaradılması barədə müzakirələr aparılıb.

## AZƏRBAYCANIN ÖZÜNÜN XARİCİ DÖVLƏTLƏRƏ YÖNƏLTDİYİ SƏRMAYƏLƏR PERSPEKTİVDƏ ÖLKƏMİZƏ BÖYÜK GƏLİR GƏTİRƏCƏK

Əlamətdar haldır ki, məqsədyönlü siyasət sayəsində getdikcə iqtisadi-maliyyə imkanlarını genişləndirən Azərbaycanın özü də fəal investisiya siyasəti həyata keçirir. Ölkəmizin investisiyalar yönəltdiyi dövlətlərin coğrafiyası getdikcə genişlənir.

Qeyd edək ki, ötən il oktyabrın 19-da Türkiyədə açılışı gerçəkləşən "Star" neft emalı zavoduna SOCAR tərəfindən 6,3 milyard dollarlıq investisya qoyulub. Bununla da ölkəmizin son 20 ildə qardaş ölkəyə yatırdığı sərmayələrin həcmi ümumilikdə 19,5 milyard dollara çatıb. Qürurverici faktdır ki, zavod Avropa, Orta Şərq və Afrikanı əhatə etməklə bölgədə ən nəhəng neft emalı müəssisəsidir.

Azərbaycan qonşu Gürcüstanda genişmiqyaslı investisiya layihələri həyata keçirir. Respublikamız 2012-ci ildən etibarən Gürcüstana sərmayə qoyan xarici ölkələrin arasında birinci yeri tutur.

Hazırda Azərbaycan Rusiyada da müxtəlif investisiya layihələri reallaşdırır. İndiyədək Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayələr yönəldilib.

MDB Statistika Komitəsinin ötən il açıqladığı iqtisadi göstəricilərdə Azərbaycan xarici ölkələrə yatırdığı irihəcmli sərmayələrə görə MDB məkanında ilk üçlükdə qərar tutur. Mütəxəssislər əminliklə bildirirlər ki, Azərbaycanın özünün xarici dövlətlərə yönəltdiyi sərmayələr perspektivdə ölkəmizə böyük gəlir gətirəcək.

**Mübariz ABDULLAYEV**

# Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda "dəyirmi masa" keçirilib

## *Tədbir iştirakçıları ölkəmizdəki siyasi proseslərə xarici müdaxilə cəhdləri ilə bağlı bəyanat qəbul ediblər*

Sentyabrın 11-də Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda "dəyirmi masa" keçirilib. "Dəyirmi masa"da siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı bildirib ki, Azərbaycan dövləti uğurla inkişaf edir, onun beynəlxalq müstəvidə mövqeyi güclənir. Bu isə xaricdəki müəyyən dairələri narahat edir. Millət vəkilinin sözlərinə görə, xaricdəki anti-Azərbaycan qüvvələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar: "**Azərbaycandan kənarda yaşayan bəzi azərbaycanlılar sosial şəbəkələrdən, internet televiziyalarından intensiv olaraq canlı yayımda xalqı çaşdırmağa çalışır, dövlətimizə, dövlət başçısına qarşı şərböhtan atırlar. Onlar ölkəni xaosa çevirmək, əldə etdiyimiz bütün uğurları məhv etmək istəyirlər. Bu ssenarinin təməl daşını qoyan məhz Avropada məskunlaşan və onlara dəstək verən dağıdıcı antimilli qüvvələrdir. Ölkəni anarxiyaya sürükləmək istəyən həmin insanlar Azərbaycana düşmən olan qüvvələr tərəfindən idarə olunurlar, maliyyələşdirilirlər. Eyni zamanda, məqsəd Azərbaycan dövləti və iqtidarı ilə xalq arasında etimadsızlıq toxumu səpmək, xalqla iqtidar arasındakı birliyi sarsıtmaqdır. Bütün bunlar Azərbaycanın dövlətçiliyinə, milli maraqlarına qarşı yönəlmiş olan xətdir. Biz dövlət maraqları naminə bu çirkin fəaliyyəti, ölkəmizdəki siyasi proseslərə xarici müdaxilə cəhdlərini qətiyyətlə pisləməliyik**".



*Əli Əhmədov: İstənilən siyasi partiya öz fəaliyyətində ölkəmizin milli maraqlarını üstün tutmalıdır*







"Dəyirmi masa"da çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, istənilən siyasi partiya öz fəaliyyətində ölkəmizin milli maraqlarını üstün tutmalıdır. O qeyd edib ki, xaricdə mühacir statusu alan bəzi şəxslər Azərbaycanda siyasi proseslərə müdaxilə etməyə cəhd göstərirlər.

Əli Əhmədov deyib ki, həmin şəxslər xaricdən sığınacaq almaqla Azərbaycan vətəndaşlığından imtina etməyə bərabər addım atıblar: "**Digər tərəfdən, xaricdə sığınacaq aldığına görə çox məhdud dövlət yardımı ilə yaşayan insanların geniş siyasi fəaliyyət göstərmək, təbliğat maşını yaratmaq, onu idarə etmək kimi imkanları yoxdur. Deməli, bunlar istəsələr də, istəməsələr də, bu fəaliyyəti göstərmək üçün hər hansı bir kənar maliyyə dəstəyinə ehtiyac duyurlar və bu dəstəyi almaq üçün ayrı-ayrı maraqlı qüvvələrin təsiri altına düşməyə məhkumdurlar. Həmçinin onlar bu məsələdə maraqlı olan xüsusi xidmət orqanları üçün tamamilə açıq olurlar, ardıcıl olaraq xarici xüsusi xidmət orqanları tərəfindən asanlıqla ələ alına bilən, yönəldilə bilən bir qrupa çevrilirlər. Bu mənada o insanların Azərbaycan siyasətinə təsir etmək cəhdləri həm təhlükəli, həm də yolverilməzdir**".

O qeyd edib ki, həmin şəxslərin bəziləri "Youtube"da guya izləyicilərinin hesabına gəlir əldə etdiklərini iddia edirlər: "**Bu, əsassızdır, araşdıra bilərsiniz. Hakimiyyət iddiasında olan partiyalar xalqın marağından çıxış etməlidir, hansısa xarici qüvvənin yox. Sözügedən mühacirlərin əsas işi Azərbaycan dövlətini, Prezidentini nüfuzdan salmağa çalışmaqdır. Çünki Azərbaycan güclənib, qüdrətlənib. Bəzi xarici qüvvələr Ermənistanı "demokratik", Azərbaycanı isə "antidemokratik" göstərməyə cəhd edirlər. Bütün bu cəhdlər əbəsdir. Sağlam düşüncəli qüvvələrin milli maraqlar naminə birləşməsi çox önəmlidir. Xarici qüvvələr seçkilər vasitəsilə də ölkə daxilinə müdaxilə etməyə cəhd edə bilərlər. Bu təcrübə var**".

YAP Sədrinin müavini söyləyib ki, ayrı-ayrı dövrlərdə xarici emissarların Azərbaycanda keçirilən mitinqlər, küçə yürüşlərini nə dərəcədə yaxından izlədikləri və yaxud hansısa formada yönəltdiyi ilə bağlı kifayət qədər misallar gətirmək mümkündür: "**Hakimiyyət iddiasında olan bütün siyasi partiyalar ilk növbədə milli maraqlardan çıxış edərək siyasi proseslərin iştirakçısı olmalıdır və hər hansı kənar qüvvənin siyasi proseslərə müdaxilə etməsinə imkan verməməlidirlər. Biz bu gün xaricdə mühacir qismində sığınacaq tapmış bəzi insanların indiki texnologiyanın imkanlarından istifadə edərək Azərbaycana qarşı apardığı çirkli təbliğat kampaniyasına qarşı qəti sözümüzü deməyi bacarmalıyıq. Bu mənada bugünkü tədbiri xüsusi qiymətləndirmək istəyirəm**".

Sonra bəzi müxalifət partiyalarının rəhbərləri çıxışlarında mövzudan kənara çıxaraq müxtəlif məsələlərlə bağlı qeyri-obyektiv fikirlərini bildiriblər. Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov onlar tərəfindən səsləndirilən iddialara cavab verib. Əli Əhmədov bildirib ki, heç bir beynəlxalq təşkilat hansısa ölkənin daxili işinə qarışa bilməz: "**Onlar seçki prosesində müşahidə apara bilərlər. Kiminsə seçilməsi ilə bağlı məsələ ortaya qoya bilməzlər**".

Əli Əhmədov Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun Prezident İlham Əliyevin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə görüşü ilə bağlı səsləndirdiyi fikirlərə də cavab verib: "**Sərdar Cəlaloğlu, sən Patruşevlə danışıqlarda iştirak etmisən? Bilmədiyin halda niyə ağlına gələn bəyanatlarla çıxış edirsən?! Ayrı-ayrı şəxslərin müxtəlif ölkələrin orden və medalları ilə təltif olunmasına gəlincə, bu təcrübə həm Azərbaycanda, həm də başqa ölkələrdə var. Bizdə də "Dostluq" ordeni var. Rusiyada da həmçinin bu ənənə var. Bu, torpağın qorunmasına və müdafiə olunmasına görə deyil, sadəcə, dövlətlər və ölkələrarası münasibətlərə töhfə verildiyinə görə təqdim edilir. Qeyri-ciddi fikirlər deməklə ictimaiyyəti çaşdırmaq lazım deyil. Biz burada dedi-qodu ilə məşğul olmamalıyıq. Halbuki, müzakirə mövzusu başqadır. Etiraf etmək lazımdır ki, Azərbaycan hansısa səviyyəyə yüksəldiyini hər kəs yaxşı bilir. Azərbaycan 20-30 il əvvəlki Azərbaycan deyil. Ötən dövrdə ölkəmiz böyük inkişaf yolu keçib və bunu hamı yaxşı bilir**".

Əli Əhmədov bildirib ki, bu tədbirdə toplaşmağın əsas məqsədi Azərbaycanda siyasi proseslərə xarici müdaxilələr məsələsini müzakirə etməkdir: "**Əgər biz müzakirəyə çıxarılan məsələ ilə əlaqədar fikir mübadiləsi aparıb vahid qərara gəlmək istəyiriksə, bu barədə danışaq. Əksinə, digər məsələləri bu tribunadan istifadə edib səsləndirmək istəyiriksə, heç nəyə nail ola bilməyəcəyik**".

Tədbirdə daha sonra BAXCP sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa, Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Milli QHT Forumunun prezidenti Rauf Zeyni və digərləri çıxış edərək ölkəmizdəki siyasi proseslərə xarici müdaxilələrin yolverilməz olduğunu vurğulayıblar. Qeyd olunub ki, bu məsələdə bütün siyasi partiyalar, vətəndaş cəmiyyəti həmrəylik nümayiş etdirməlidir. Çünki müstəqil Azərbaycanın davamlı olaraq inkişafı, güclənməsi, beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsi anti-Azərbaycan dairələri narahat edir. Çıxışlarda bildirilib ki, həmin dairələr xaricdə mühacir adı ilə yaşayan azərbaycanlılardan öz məqsədləri üçün istifadə edirlər. Bu da yolverilməzdir. Ona görə də ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar, vətəndaş cəmiyyəti həmin dairələrin ölkəmizdəki siyasi proseslərə müdaxilə cəhdlərini qətiyyətlə pisləməlidir.

Sonda tədbir iştirakçıları adından bəyanat qəbul olunub. Bəyanatda qeyd olunur: "**Biz, "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda təşkil edilmiş "dəyirmi masa"nın iştirakçıları olan siyasi partiyaların, vətəndaş cəmiyyətinin təmsilçiləri, media rəhbərləri və müstəqil siyasi ekspertlər bu gün beynəlxalq aləmdə, o cümlədən regionda baş verən mürəkkəb və həssas prosesləri, real imkan və perspektivləri hərtərəfli müzakirə edərək, Azərbaycanın müstəqilliyinin, eləcə də dövlətçilik prinsiplərinin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, taleyüklü məsələlərdə milli həmrəyliyimizin tam şəkildə bərqərar edilməsi, xalqımızın həyat səviyyəsinin, dövlətimizin iqtisadi və hərbi potensialının, beynəlxalq aləmdə nüfuzunun və təsir imkanlarının daha da gücləndirilməsi məqsədilə:**

***- Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qısa müddətdə işğaldan azad edilməsi istiqamətində hərb yolu da daxil olmaqla atılacaq addımları birmənalı şəkildə müdafiə edəcəyimizi bəyan edir,***

***- siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın ordu quruculuğuna və silahlı qüvvələrimizə hərtərəfli və birmənalı dəstəyinin zəruriliyini ifadə edir,***

***- ölkədə həyata keçiriləcək islahatları dəstəkləyir, ardıcıl və davamlı olmasını vacib sayır,***

***- vətəndaş sülhü və milli həmrəylik istiqamətində birgə fəaliyyətin göstərilməsinin zəruriliyini nəzərə alaraq, siyasi mübarizədə etik normaları gözləməyə, milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd əməllərə yol verməməyə, eyni zamanda, davamlı dialoq mühitinin yaradılmasına, sosial şəbəkələrdə, o cümlədən kütləvi informasiya vasitələrində təhqir, böhtan və şayiə xarakterli məlumatlar yaymamağa çağırır,***

***- respublikamızda keçirilən seçkilər zamanı bu prosesə beynəlxalq hüquqa zidd hər hansı xarici müdaxilənin yolverilməz olduğunu xüsusi vurğulayır və belə müdaxilə cəhdlərinə qarşı birgə fəaliyyəti zəruri saydığımızı bildiririk***".

**Nardar BAYRAMLI**

## Baş nazirin müavini: "Azərbaycanda uşaqpulu verilmir" fikrini səsləndirmək doğru deyil




Azərbaycanda xeyli ailə ünvanlı sosial yardım alır. Bu yardımdan faydalanan ailələrin əksəriyyəti çoxuşaqlıdır. Bu mənada "ölkədə uşaqpulu verilmir" məntiqini qəbul etmirəm. "Trend"in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi, Baş nazirin müavini Əli Əhmədov deyib.

O qeyd edib ki, ünvanlı sosial yardım həm də çoxuşaqlı ailələr üçün nəzərdə tutulub: "**Çoxuşaqlı ailələr həm də aztəminatlı ailə hesab olunur**".

Əli Əhmədov vurğulayıb ki, bu baxımdan "Azərbaycanda uşaqpulu verilmir" fikrini səsləndirmək doğru deyil: "**Azərbaycan hökuməti çoxuşaqlı ailələri diqqətdən kənarda saxlamır. Siz bunu "uşaqpulu" formasında ifadə edirsinizsə, o zaman bu araşdırılmalıdır. Güman edirəm ki, bu məsələ araşdırıla və qərar qəbul oluna bilər. Bir daha qeyd edirəm ki, aztəminatlı ailələrin dövlətdən güzəştalma mexanizmi və forması mövcuddur**".

## Əli Əhmədov: Xaricdə "mühacirət müxalifəti" adı ilə fəaliyyət göstərənlər bəzi xarici dairələrin maraqlarından çıxış edirlər

"**Bizi narahat edən məqam ondan ibarətdir ki, xaricdə "mühacirət müxalifəti" adı ilə fəaliyyət göstərənlər bəzi xarici dairələrin maraqlarından çıxış edirlər. Onların bir sıra təbliğat kampaniyaları xarici maliyyə əsasında qurulur**". Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, bu cür fəaliyyətlə Azərbaycandakı siyasi proseslərə xarici təsir elementlərinin gətirilməsi təhlükəsi yaranır. Bu mənada siyasi partiyalar, qeyri-hökumət təşkilatlarının belə cəhdlərə qarşı açıq mövqe ortaya qoyması müsbət haldır.

"**Əgər siyasi partiyaların, ictimai hərəkatların bu cür mövqeyini ardıcıl şəkildə müşahidə etsək, güman edirəm ki, bütövlükdə Azərbaycan cəmiyyəti aydın şəkildə dövlətçilik prinsiplərinə qarşı fəaliyyət göstərən maraqlı dairələrin hərəkətlərinin milli maraqlarımız baxımından nə qədər təhlükəli və qəbuledilməz olduğunu dərk edər. Digər tərəfdən, indiki texnologiyaların yaratdığı imkanlar bir sıra xoşagəlməz meyillərin ortaya çıxmasına səbəb olur. Bu da insanların mənəvi terrora məruz qalması, şərəf və ləyaqətinin alçaldılması ilə müşayiət olunur. Bütün bunlar anonim adlarla edilir və təbii ki, insanları narahat etməyə bilməz. Onların əsas hədəfi isə fəal siyasi mövqe ortaya qoyan şəxslərdir. Biz belə halları qətiyyətlə pisləyirik. Müsbət haldır ki, "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda keçirilən "dəyirmi masa" iştirakçılarının əksəriyyəti bu məsələdə həmrəy oldular. Güman edirəm ki, onlar bundan sonra da eyni mövqe nümayiş etdirəcəklər**", - deyə YAP Sədrinin müavini vurğulayıb.

## YAP-ın nümayəndə heyəti ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsində görüş keçirib



Yeni Azərbaycan Partiyası (YAP) ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin 20 illiyi münasibətilə Çin Xalq Respublikasında səfərdə olan YAP nümayəndə heyəti sentyabrın 11-də ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin 6-cı Departamentinin rəis müavini Van Minlə görüşüb. Görüşdə Azərbaycan ilə Çin, eləcə də YAP ilə ÇKP arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib. Nümayəndə heyətinin rəhbəri, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin komitə sədri Hadi Rəcəbli müstəqil Azərbaycanın keçdiyi inkişaf yolundan bəhs



edib, Heydər Əliyev siyasətinin uğurlu nəticələrini vurğulayıb. Qeyd edib ki, hazırda Azərbaycanın qarşısında dayanan əsas məsələ ölkənin 20 faiz torpaqlarının işğaldan azad edilməsi, Ermənistanın hərbi təcavüzündən zərər çəkən 1 milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarının bərpasıdır. Komitə sədri həmçinin YAP-ın ÇKP ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini bildirib.

Öz növbəsində, xanım Van Min Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin Çində böyük maraq doğurduğunu, sürətlə inkişaf edən Azərbaycanla əməkdaşlığın ölkəsi üçün mühüm önəm daşıdığını vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Qeyd edək ki, YAP nümayəndə heyətinin Çinə səfəri sentyabrın 17-dək davam edəcək.

# Təhsil işçilərinin respublika konfransının iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Təhsil işçilərinin respublika konfransının iştirakçıları sentyabrın 11-də Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən konfrans iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilib












Sentyabrın 11-də təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilib. Konfransda ötən tədris ilinin yekunları müzakirə edilib, 2019-2020-ci dərs ilinin prioritet istiqamətləri, qarşıda duran hədəflər yerli təhsili idarəetmə orqanlarının, ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərinin və təhsil ictimaiyyətinin diqqətinə çatdırılıb.

AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Tədbirdə "Təhsil" televiziyasının 2018-2019-cu tədris ili ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

Konfransda hesabat məruzəsi ilə çıxış edən Təhsil naziri Ceyhun Bayramov diqqətə çatdırıb ki, dövlət siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən çoxsaylı proqramlar, sərəncamlar imzalanıb. 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir. Bu təhsil müəssisələrindən 43-ü sentyabr ayının 15-nə qədər təhvil veriləcək. Digər 41 məktəbdə işlər ilin sonuna qədər yekunlaşacaq. Təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsi və yenilənməsi sahəsində görülən işlərdən danışarkən mütləq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi xidmətlərini də qeyd eyməliyik. Heydər Əliyev Fondunun xətti ilə 14 yeni məktəb binasının tikintisi, 8 məktəbin əsaslı təmiri həyata keçirilir. Eyni zamanda, dövlət proqramına uyğun olaraq bu il ərzində 257 məktəbdə təmir işləri görülüb. Ümumilikdə götürdükdə 2003-2018-ci illər ərzində ölkədə 3200-dən artıq yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Nəticədə bir milyondan çox Azərbaycan şagirdinin təlim-təhsil şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb.

Nazir qeyd edib ki, təhsil sahəsində aparılan əməkhaqqı islahatlarını da diqqətdən kənarda qoymamalıyıq. Müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılıb. Nəticədə 150 mindən artıq müəllimin dərs yükü 1,5 dəfə, əməkhaqqı isə orta hesabla 2 dəfə artıb. Təhsil sahəsində əməkhaqlarının artırılması sistemli və davamlı xarakter daşıyır. Sentyabrın 1-də qüvvəyə minən Sərəncam nəticəsində müəllimlərin orta aylıq əməkhaqqı təxminən 600 manatı keçib. Bu artımdan sonra ümumtəhsil sistemində çalışan 5 mindən çox müəllimin əməkhaqqı 1000 manatı keçib.

Ceyhun Bayramov son illərdə ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunduğunu və bir sıra əsaslı nailiyyətlər əldə edildiyini diqqətə çatdırıb. Məktəbəqədər təhsilin əhəmiyyətindən danışan nazir UNİSEF və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən 3-5 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması layihəsinə də toxunub. Qeyd edib ki, növbəti tədris ilində icma əsaslı məktəbəqədər qrupların sayının artırılaraq 300-ə, uşaqların isə 6000 nəfərə çatdırılması nəzərdə tutulur.

Təhsil naziri müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində görülən işlərdən də söz açıb. Vurğulayıb ki, həyata keçirilən bütün tədbirlər cəmiyyətdə işə qəbulun obyektivliyinə inam formalaşdırıb və 2019-cu ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb, müraciət edənlərin sayı 55 mini ötüb. Ümumilikdə, son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub.

Nazir bildirib ki, bu il 500-dən çox bal toplayan abituriyentlərin 25 faizi müəllimlik ixtisasını seçib. Bu isə müəllim peşəsinin rəqabətliliyi, təhsilin keyfiyyəti haqqında müsbət proqnozlar söyləməyə imkan verir.

İstedadlı uşaqlarla iş sahəsində görülən tədbirləri vurğulayan Ceyhun Bayramov deyib ki, beynəlxalq olimpiada və bilik yarışlarında Azərbaycan məktəbliləri son beş ildə 4-ü qızıl, 34-ü gümüş və 108-i bürünc olmaqla ümumilikdə 146 medal qazanıblar. Tam orta təhsil səviyyəsində təmayülləşmənin əhatə dairəsi cari tədris ilində genişləndirilib və 2 min 140 sinifdə 47 min 930 şagird təmayüllər üzrə təhsilə cəlb edilib. Ötən il ölkəmizin bir sıra şəhər və rayonlarında 60 lisey sinif yaradılıb. Cari tədris ilində də bu istiqamətdə işlər davam etdiriləcək, siniflərin sayı artırılacaq. Gəncə şəhərində və Quba rayonunda Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin, Şirvan və Şəki şəhərlərində isə nazirliyin tabeliyindəki Kimya-biologiya təmayüllü Respublika liseyinin sinifləri yaradılacaq. Siniflərin yaradılmasında əsas məqsəd bölgələrdə istedadlı uşaq və gənclərin potensial imkanlarının aşkarlanması, inkişaf etdirilməsi və onların səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasıdır. Bu siniflərin beynəlxalq olimpiadalara hazırlıq mərkəzi funksiyasını daşıması da nəzərdə tutulur.

Tədrisdə İKT-dən istifadə imkanlarının genişləndirilməsi, "Rəqəmsal bacarıqlar" layihələri barədə məlumatları diqqətə çatdıran Ceyhun Bayramov qeyd edib ki, layihə növbəti tədris ilində 100-dən çox məktəbi və 90 mindən artıq şagirdi əhatə edəcək. Növbəti tədris ilində ilk dəfə olaraq 6000-dən çox şagird əhatə edilməklə məktəblərdə STEAM-in (təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ öyrədilməsi) tədrisinə start veriləcək.

Məktəb Məzunlarının əmək bazarına daha asanlıqla inteqrasiyasını təmin etmək məqsədilə növbəti tədris ilindən ümumi təhsil müəssisələrinin X-XI siniflərində peşə təmayül siniflərinin fəaliyyətə başlaması planlaşdırılır. İlkin olaraq müxtəlif bölgələr əhatə edilməklə 20 ümumi təhsil müəssisəsində iaşə xidməti, kənd təsərrüfatı, inşaat və məişət texnikası üzrə bacarıqların tədrisi üçün zəruri olan emalatxana və təcrübə sahələri yaradılacaq.

Təhsil sisteminin qarşısında duran ən böyük vəzifələrdən biri də təhsilin bütün vətəndaşlar üçün əlçatan, keyfiyyətli, rəqabətədavamlı olması, eyni zamanda, gənclərimizdə düzgün dəyərlərin formalaşdırılmasıdır. Nazir təhsil işçilərini bu istiqamətdə səylərini artırmağa çağırıb.

Çıxışının sonunda nazir Ceyhun Bayramov yeni tədris ilinin başlaması münasibətilə təhsil işçilərini təbrik edərək onlara uğurlar arzulayıb.

Konfransda çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, təhsil eksperti Şahlar Əsgərov, Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Vəliyeva ölkəmizdə uğurla həyata keçirilən təhsil siyasətindən, əldə edilən nailiyyətlərdən və yeni tədris ili üçün nəzərdə tutulan prioritetlərdən danışıblar.

Daha sonra Laçın rayonu Taxtakörpü qəsəbə tam orta məktəbinin gənc müəllimi Şəbnəm Uğurlu, bu il ali təhsil müəssisələrinə qəbul zamanı yüksək balla pedaqoji ixtisası seçən tələbə Fidan Əhmədova çıxış ediblər.

Konfrans işini panel sessiyalarla davam etdirib. Sessiyalarda "Təhsilin məzmunu, milli və beynəlxalq qiymətləndirmə tədqiqatları", "Qiymətləndirmədə buraxılış imtahanlarının yeni modeli: ilkin nəticələrin təhlili", "Rəqəmsal sistemlər və səmərəli idarəetmə", "İstedadlı uşaqlarla işin təşkili", "STEAM milli kurikulumun tərkib hissəsi kimi", "Ümumi təhsil məktəblərində peşəyönümlü təmayüllərin tətbiqi" mövzularında müzakirələr aparılıb.

Xatırladaq ki, sentyabrın 2-dən 6-dək respublikanın müxtəlif rayon və şəhərlərində təhsil işçilərinin konfransları keçirilib. Konfranslarda ötən tədris ilinin yekunları və yeni tədris ilinin prioritet istiqamətləri təhsil işçiləri ilə geniş müzakirə edilib, qarşıda duran vəzifələrlə bağlı tövsiyə və tapşırıqlar verilib.

# Azərbaycanın Sverdlovsk vilayəti ilə iqtisadi əməkdaşlığının genişləndirilməsi müzakirə olunub



Sentyabrın 11-də İqtisadiyyat naziri Şahin Mustafayev Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ş.Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşlərinin dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirdiyini deyib.

Vurğulayıb ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında ticarət dövriyyəsinin həcmində davamlı artım müşahidə edilir. Rusiyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 50 faizədək hissəsi Azərbaycanın payına düşür. Ötən il Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 19 faiz, bu ilin yanvar-iyul ayları ərzində isə 23 faiz artıb. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə birinci yerdədir. Təkcə ötən il Azərbaycandan Rusiyaya ixrac edilən meyvə-tərəvəzin həcmi 550 min tondan çox olub və ixrac həcminin 1 milyon tona çatdırılması imkanları mövcuddur.

Nazir qeyd edib ki, Azərbaycan Rusiyanın federal subyektləri ilə sıx əməkdaşlıq edir və Sverdlovsk vilayəti Azərbaycan üçün vacib tərəfdaşdır. Ötən il Azərbaycanın Sverdlovsk vilayəti ilə ticarət dövriyyəsi 83 faiz artaraq 95 milyon dollara çatıb. Cari ildə bu göstəricinin 100 milyon dollardan çox olması hədəflənir.

Diqqətə çatdırılıb ki, bu ilin iyulunda Yekaterinburqda Azərbaycan Şərab Evinin açılması qarşılıqlı əməkdaşlığın real nəticəsidir. Sentyabrın 12-də Bakıda keçiriləcək Azərbaycan-Rusiya biznes forumunda Sverdlovsk vilayətindən rəsmi şəxslərlə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edəcək. Biznes forum çərçivəsində Azərbaycan və Rusiya şirkətləri arasında kənd təsərrüatı məhsullarının ixracının təşviqi, şərab ixracının dəstəklənməsi və sair barədə sənədlərin imzalanması nəzərdə tutulur.

İqtisadiyyat naziri ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının Rusiyaya, o cümlədən Sverdlovsk vilayətinə ixracı, maşınqayırma, metallurgiya, kimya, yüngül sənaye, İKT və sair sahələrdə fəaliyyət göstərən şirkətlərin Azərbaycanın sənaye parklarında iştirakı, kiçik və orta sahibkarlıq, nəqliyyat-logistika, səhiyyə, turizm, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi potensialını diqqətə çatdırıb, maşınqayırma və elektrik avadanlıqlarının istehsalı sahəsində ixtisaslaşmış Rusiya şirkəti ilə Azərbaycanda qaldırıcı kran və avadanlıqların istehsalı sahəsində birgə müəssisənin yaradılmasını təklif edib.

Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşev Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, ölkəmizin Rusiya və onun federal subyektləri ilə əməkdaşlığının uğurla inkişaf etdiyini, bu sahədə işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib. Y.Kuyvaşev iqtisadiyyatın bir sıra sahələrində əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün potensialı diqqətə çatdırıb. Qubernator 23-dən çox ali təhsil müəssisəsinin yerləşdiyi Sverdlovsk vilayəti ilə Azərbaycan arasında elmi-texniki və humanitar sahədə əməkdaşlığın genişləndirilməsi imkanlarını vurğulayıb.

Sonra Azərbaycanın biznes mühiti və investisiya imkanları, sənaye parkları, Sverdlovsk vilayətinin sənaye potenisalı, görüşdə iştirak edən Azərbaycan və Rusiya şirkətləri arasında əlaqələrin inkişafı imkanları barədə məlumat verilib.



Görüşdə Azərbaycan və Rusiya Federasiyasının Sverdlovsk vilayəti arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətləri müzakirə olunub.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Sverdlovsk vilayəti Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və digər sahələrdə beynəlxalq və xarici iqtisadi əlaqələrin həyata keçirilməsi haqqında Saziş imzalanıb. Sənədi Azərbaycanın İqtisadiyyat naziri Ş.Mustafayev və Sverdlovsk vilayətinin qubernatoru Y.Kuyvaşev imzalayıblar.

Görüşdə, həmçinin Bakı Dövlət Universiteti və Rusiyanın birinci Prezidenti B.N.Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlığa dair memorandum, Azərbaycan Dillər Universiteti və Ural Federal Universiteti arasında isə əməkdaşlığa dair müqavilə imzalanıb.

Tədbir iş adamları arasında müzakirələrlə davam edib.

# Azərbaycanda məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar Avropa Şurası tərəfindən təqdir edilir



Sentyabrın 11-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Qaralov Azərbaycanda Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verildiyini xüsusi vurğulayaraq müstəqilliyin bərpasından sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş məqsədyönlü işlərdən danışıb, Avropa Şurası ilə münasibətlərin tarixinə nəzər salıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirildiyini bildirən Baş prokuror müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşdırılması ilə əlaqədar dövlətimizin başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə bağlı Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişikliyin edildiyini, Məcəllədə indiyədək nəzərdə tutulmuş 18 növ cinayət əməlinin dekriminallaşdırılması, cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqi əsaslarının xeyli dərəcədə genişləndirilərək, 152 növ cinayətin sanksiyasına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması barədə məlumat verib, bu humanistləşdirmə tədbirlərinin bu günədək 10 minə yaxın şəxsə şamil olunduğunu bildirib.

Həmin tədbirlərin davamı olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasının səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlərin görülməsi, cəzaların icrasında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunmaqla elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidmətinin yaradıldığı qeyd olunub.

Bundan başqa, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların davamı olan Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı barədə məlumat verən Baş prokuror ölkə məhkəmələrinin fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, elektron xidmətlərin göstərilməsi, hakimlərin sayının artırılması və sosial müdafiəsinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyəti subyektlərinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, eləcə də cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi istiqamətində həmin Fərmanla verilmiş tövsiyə və tapşırıqlar barədə danışıb.

Baş prokuror qeyd edib ki, həmin tövsiyə və tapşırıqların icrası ilə əlaqədar Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrinə 400-ə yaxın dəyişikliyin edilməsi haqqında qanun layihələri hazırlanıb.

Görüşdə xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin ərazisinin 20 faizinin Ermənistanın işğalı altında olması, bir milyondan artıq qaçqın və məcburi köçkünün doğma yurdlarından didərgin düşdüyünü qeyd edən Baş prokuror işğala məruz qalmış ərazilərimizdə yaradılmış qondarma "məhkəmələr" tərəfindən Dilqəm Əsgərovun və Şahbaz Quliyevin doğma torpağında casus adı ilə həbs edilərək əsirlikdə saxlanılmasının insan hüquqlarının pozuntusunun bariz nümunəsi olduğunu qonağın diqqətinə çatdırıb.

Baş Prokurorluğun insan hüquqları və qanunun aliliyi sahəsində Avropa Şurası ilə əməkdaşlığa hər zaman hazır olduğunu bildirən Zakir Qaralov cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində atılan addımlar barədə məlumat verib, bu işdə həm əhali, həm beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən və dünyada artıq Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd edib.

Ölkəmizlə bağlı xoş təəssüratlarından danışan Xristos Cakumopolos, Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri qismində Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatların Avropa Şurası tərəfindən təqdir olunduğunu və dəstəkləndiyini diqqətə çatdırıb. O, Avropa Şurası ekspertlərinin azərbaycanlı həmkarları ilə bundan sonra da sıx və əlaqəli şəkildə işləmək niyyətini ifadə edərək, korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən işləri yüksək qiymətləndirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər müzakirə edilib.

# Hikmət Babaoğlu: Ermənistanın "Amulsar" qızıl mədəni ətrafında siyasi xaos davam edir



Ermənistanın "Amulsar" qızıl mədəninin "Lydian Armenia" şirkəti tərəfindən istismar edilməsi ilə bağlı əldə edilən razılaşma Paşinyan hökumətinin növbəti uğursuzluğuna çevrilib və erməni ictimaiyyətinin ciddi narazılığına səbəb olub. Bu layihə təkcə daxili narazılıq yaratmır, eyni zamanda, Ermənistanın xarici siyasətində də ciddi problemlərə səbəb ola biləcək hadisə kimi qiymətləndirilir. Əgər daxili narazılıq ekoloji problemlər və şirin su mənbələrinin yoxolma ehtimalı ilə əsaslandırılırsa, xarici siyasətdə narazılıqlar Ermənistana Qərb investisiyasının cəlb edilməsi ilə işğalçı ölkədə Rusiya sərmayəsinin sıxışdırılması ilə əlaqələndirilir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. Deputat qeyd edib ki, daxili və xarici siyasətlə əlaqələndirilən təhdidlər Paşinyanı çıxılmaz vəziyyətə salır və hər iki amil getdikcə daha təhlükəli həddə çatır. Hələlik "Lydian Armenia" şirkətinin işləri bərpa etməsi üçün 2020-ci ilə qədər fasilə götürməsi Paşinyan üçün bir siyasi "nəfəslik" rolunu oynasa da, bir qədər sonra onun bu problemlə daha ciddi və sərt şəkildə üzləşəcəyini qaçılmaz edir.

Hikmət Babaoğlu vurğulayıb ki, Paşinyanın vəziyyətdən optimal çıxış yolu tapması faktiki olaraq mümkün deyil. Çünki 2020-ci ildə qızıl yatağının istismarı ilə bağlı işlərin yenidən başlayacağı təqdirdə Paşinyana da şimal mənşəli təzyiqlərin başlanacağı istisna deyil. Belə olan halda isə bu layihənin realizə olunması çox mürəkkəb görünür. Ancaq ən əsas məsələ odur ki, belə vəziyyətdə Paşinyanın ictimai rəyi manipulyasiya etdiyi son kart da onun əlindən çıxmış olacaq. Çünki məhz "Amulsar" qızıl yatağından əldə etdiyi gəlirlərə güvənərək 2025-ci ildən sonra Ermənistan iqtisadiyyatında sıçrayışlı inkişafın olacağı vədini vermiş Paşinyan bu vədini də yerinə yetirə bilməyəcək. Əgər o vaxta qədər hakimiyyətdə qalmağı bacarsa belə, ondan sonra hakimiyyətlə mütləq vidalaşmalı olacaq. Hazırda bu məsələnin təkcə Ermənistanın daxilində deyil, xaricdə də fəal müzakirə mövzusuna çevrilməsi Ermənistanın qərb mənşəli tərəfdarlarının da Paşinyana təzyiqi ilə nəticələnə bilər ki, bu məsələnin həllini tapmaması onu dilemma qarşısında qoyaraq siyasi intiharına gətirib çıxara bilər. Ona görə də Paşinyan xalqını sülhə hazırlamalı və Azərbaycanın işğal edilmiş torpaqlarından öz quldur dəstələrini çəkməlidir. Onun başqa çıxış yolu yoxdur.

Hikmət Babaoğlu əlavə edib ki, "Amulsar" qızıl mədəni ətrafında siyasi xaos davam edir. Ermənistan hökumətinin düşdüyü isterik durum Nikol Paşinyanın ictimai nüfuzuna mənfi təsir göstərməkdədir.

# ADU və Ural Federal Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Sentyabrın 11-də Bakı Biznes Mərkəzində Azərbaycan Dillər Universiteti (ADU) ilə Boris Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqavilə tərəflər arasında təhsil və elm sahəsində uzunmüddətli əməkdaşlıq, tədris prosesində elmi nailiyyətlərin tətbiqi və təcrübə mübadiləsi, bərabərlik, qarşılıqlı fayda əldə edilməsi, qarşılıqlı anlaşma, hörmət və etibar prinsipləri əsasında yüksəkixtisaslı kadrların hazırlanması, elmi potensialın inkişafı, akademik, elmi və mədəni əlaqələrin qurulması, elmi araşdırma və təhsil sahəsində əlaqələrin inkişafı və möhkəmləndirilməsi məqsədi daşıyır.

Müqavilənin imzalanması mərasimində çıxış edən Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla tərəflər arasında imzalanmış müqaviləni yüksək qiymətləndirib. Rektor gələcəkdə bir çox birgə layihələrin həyata keçiriləcəyinə, tələbə mübadiləsinin reallaşacağına ümidvar olduğunu deyib.

Ural Federal Universitetinin rektoru Viktor Kokşarov əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə edib, birgə fəaliyyətin faydalı olacağına əminliyini bildirib.



Sonra Ural Federal Universitetinin əməkdaşları Azərbaycan Dillər Universitetində olublar. Qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirən akademik Kamal Abdulla birgə əməkdaşlığın əlamətdar hadisə olduğunu vurğulayıb. Tərəflər arasında bağlanan müqavilənin həm müəllimlərin, həm də tələbələrin gələcək inkişafında əhəmiyyətli rol oynayacağı diqqətə çatdırılıb.

Kamal Abdulla Ural Federal Universitetinin müasir ali təhsil ocağı olduğunu, beynəlxalq əlaqələrdə çoxşaxəli sferalara malik olduğunu bildirərək, əlavə edib ki, qarşılıqlı elmi nailiyyətlərin tətbiqi və təcrübə mübadiləsi həm Azərbaycan Dillər Universiteti üçün, həm də Azərbaycan təhsili üçün geniş imkanların yaranması deməkdir.

# Vüqar Rəhimzadə: Paşinyanın hakimiyyət hərisliyi və acgözlüyü Ermənistanı növbəti dəfə siyasi kollapsla qarşılaşdırıb

Ermənistan çox ciddi iqtisadi və siyasi böhranla üz-üzədir. Nikol Paşinyanın hakimiyyət hərisliyi və acgözlüyü Ermənistanı növbəti dəfə siyasi kollapsla qarşılaşdırıb. Buna səbəb isə "Amulsar" qızıl mədəninin "Lydian Armenia" şirkəti tərəfindən işlədilməsi ilə bağlı davam edən proseslərin Ermənistan hökuməti ilə xalq arasında fikir ayrılığının yaranmasıdır.

Bu sözləri Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, "Amulsar" qızıl mədəni ətrafında yaranmış siyasi xaos və Ermənistan hökumətinin düşdüyü isterik durum Nikol Paşinyanın ictimai nüfuzuna çox ciddi mənfi təsir göstərməkdədir: **"Ümumiyyətlə, bu layihənin icrası Ermənistanda Rusiya biznesinin tam sıxışdırılaraq Qərb kapitalına üstünlük verilməsi deməkdir. Bu mənada Nikol Paşinyan da layihəyə neqativ yanaşan xalqın qarşısında aciz qalıb. Çünki layihə baş tutmayacağı təqdirdə baş nazir Qərbin dəstək və etimadını itirəcək, nəticə etibarilə Ermənistanın investisiya mühiti pisləşəcək və etibarsız tərəfdaş imici formalaşacaq".**

**"Müşahidələrimiz onu göstərir ki, Paşinyan hakimiyyətə gəldikdən sonra Rusiya kapitalını sıxışdırmaq üçün addımlar atılıb",** - deyən Vüqar Rəhimzadə əlavə edib ki, Paşinyan anti-Rusiya fəaliyyətini əsaslandırmaq üçün "Amulsar" ətrafında manipulyasiya edir: **"Guya "Amulsar"ın fəaliyyətə başlaması işsizliyin azalmasına şərait yaradacaq, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına xidmət edəcək. Lakin bunun ağ yalan olduğunu həm cəmiyyət, həm müxalifət, həm də qeyri-hökumət təşkilatlarının nümayəndələri vurğulayırlar. Həmçinin müxalif qruplar qızıl mədəninin fəaliyyətə başlamasının ətraf mühitə və su təchizatına ciddi dərəcədə zərər vuracağı qənaətindədir".**



Vüqar Rəhimzadə vurğulayıb ki, "Lydian International" Qərb kapitallı bir şirkətdir və Nikol Paşinyan da bu şirkətə Ermənistanda işləməyə icazə verməklə hakimiyyətini gücləndirmək, Rusiyadan asılılığı azaltmaq üçün Böyük Britaniyaya, ABŞ-a yarınmaq niyyətindədir: **"Lakin Paşinyanın hesablaya bilmədiyi bir məqam var idi, o da erməni xalqının rəyidir. Paşinyan öz aləmində siyasi manevr etməyə çalışsa da, bir tərəfdən, Ermənistan ictimaiyyəti, digər tərəfdən, Rusiya faktoru onu çıxılmaz duruma salıb. Hətta, bu ilin əvvəlində Böyük Britaniya qeydiyyatlı "Lydian International" şirkətinin hökuməti beynəlxalq məhkəmədə 2 milyard dollarlıq iddia qaldıracağı ilə hədələməsi, sonda hökumətin şirkətin lehinə qərar verməsi vəziyyəti daha da gərginləşdirib. Bəlkə də elə bu səbəbdəndir ki, Paşinyan vəziyyətdən çıxış yolunu Vaşinqtonda axtarmaqdadır. Ona görə də sentyabr ayında Paşinyanın Vaşinqtona gözlənilən səfərində "Amulsar" qızıl mədəni ilə bağlı məsələnin ABŞ-Ermənistan münasibətləri kontekstində gündəm mövzusu olacağı haqda mətbuatda məlumatlar yayılmaqdadır. ABŞ-ın Ermənistandakı keçmiş səfiri Riçard Milin mediaya açıqlamasında Paşinyan hökumətinin "Lydian" şirkətinin lisenziyasını ləğv edəcəyi halda bunun ABŞ-Ermənistan münasibətlərinə xələl gətirəcəyini və xarici investorları qorxudacağını bildirməsi məsələnin nə dərəcədə ciddi olmasının göstəricisi sayıla bilər".**

"İki sahil" qəzetinin baş redaktoru diqqətə çatdırıb ki, "Amulsar" qızıl mədəni ətrafında baş verənlər bu gün Nikol Paşinyan iqtidarı üçün çox ciddi probləmə çevrilib: **"Çünki mədənlə bağlı hökumətin qeyri-adekvat reaksiyası müxalifət partiyaları tərəfindən tənqid edilməkdədir. Hətta, "Daşnaksütyun" partiyası xalqın istəyinin təmin edilməsi məqsədi ilə referendumun keçirilməsi barədə çağırış edib. Bu kontekstdə layihənin parlamentdə səsə qoyulması, ölkənin hakim partiyası olan "Mənim Addımım" Alyansı daxilində parçalanmaya səbəb olması gözləniləndir. Eyni zamanda, müxalif "Çiçəklənən Ermənistan" partiyası da ictimai konsensusa əsaslanaraq qərar verilməsinin vacib olduğunu vurğulayıb və aksiyaçılara qoşulan partiyanın üzvü Naira Zöhrabyan əhalinin etirazı olacağı təqdirdə "Amulsar" qızıl mədənində aparılacaq fəaliyyətə qarşı çıxacaqlarını söyləyib. Parlamentin digər qrupu olan "İşıqlı Ermənistan" partiyası isə digərlərindən fərqli olaraq radikal davranmayıb və əhalinin narahatlığını bölüşüb. Radikal "Sasna Tser" partiyasının nümayəndəsi Qaregin Çüqaszyan isə bir neçə gün öncə Nikol Paşinyanla görüşündə "Amulsar" layihəsi ilə bağlı atılacaq hər hansı bir səhv addımın onun siyasi karyerasına son qoyacağını açıq şəkildə bildirib. Bütün bu siyasi diskussiyalar və addımlar onu göstərir ki, Ermənistan növbəti, əgər belə demək mümkündürsə, daha dərin siyasi böhran ərəfəsindədir".**

Vüqar Rəhimzadə söyləyib ki, onsuz da Rusiya ilə siyasi münasibətləri gərgin olan Ermənistanın durumu Paşinyanın verəcəyi qərardan asılı olacaq. İstənilən halda Paşinyan Ermənistanı ya siyasi, ya da sosial-iqtisadi böhrana salacaq.

# Şəhərtipli müasir Badamlı qəsəbəsi

## *Badamlı qəsəbəsində avtomobil yolu və xidmət mərkəzi istifadəyə verilib*



Ulu Öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi olan müasir Badamlı qəsəbəsində şəhər infrastrukturu yaradılıb. Aparılan quruculuq işləri qəsəbəni yeni inkişaf mərhələsinə çıxarıb. Qəsəbədə yerləşən yaşayış binalarının və avtomobil yolunun yenidən qurulması, xidmət mərkəzinin və zavodun inşası yeni iş yerlərinin açılmasına, sakinlərin məşğulluğunun və rahat yaşayışının təminatına hesablanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 11-də Şahbuz rayonunun Badamlı qəsəbəsində avtomobil yolu və xidmət mərkəzi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, avtomobil yolunda və xidmət mərkəzində yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, əsaslı şəkildə yenidən qurulan 5,3 kilometrlik Badamlı qəsəbə avtomobil yoluna yeni asfalt örtük salınıb, yolun kənarlarında 3090 metr məsafədə beton su kanalı çəkilib. Yol boyunca 53 su keçidi tikilib, 2 körpü əsaslı təmir olunub. Yolun tikintisi zamanı çay yatağında sahilbərkitmə işləri aparılıb, 2400 metrlik qəsəbədaxili yollara isə qum-çınqıl qatı verilib.

Xidmət mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, eləcə də çörək sexi yerləşir. Ərzaq mağazasında ailə təsərrüfatlarında istehsal olunan məhsulların, təsərrüfat malları mağazasında isə ailə təsərrüfatları üçün müxtəlif taraların satışı həyata keçirilir.

Çörək sexi istehsal sahəsi, mətbəx, anbar və texniki otaqlardan ibarətdir. Sahibkar Rövşən Abbasov çörək sexinin fəaliyyəti üçün yaradılan şəraitə görə minnətdarlıq edib.

Xidmət mərkəzində 10 nəfər işlə təmin olunub, həyətdə abadlıq işləri aparılıb.

Ali Məclisin Sədri xidmət mərkəzində əhalinin tələbatına uyğun məhsulların satışına üstünlük verilməsi barədə tapşırıqlar verib.

Sonra qəsəbə sakinləri ilə görüş olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək deyib ki, muxtar respublikada geniş quruculuq işləri aparılır. Bu tədbirlərin tərkib hissəsi olaraq 2017-ci ildən Şahbuz rayonunun Badamlı qəsəbəsində də kompleks quruculuq işlərinə başlanılıb. Qəsəbə avtomobil yolu yenidən qurulub, xidmət mərkəzi tikilib, yaşayış binaları təmir olunub. Tikinti işlərinin aparılması üçün hərtərəfli şərait yaradılıb, keyfiyyətə diqqət artırılıb, inşaatçılar qayğı ilə əhatə olunublar. Hicran Rüstəmov göstərilən diqqətə görə inşaatçılar adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Badamlı qəsəbəsində görülən işlər münasibətilə sakinləri təbrik edib, əməyi olanlara təşəkkürünü bildirərək deyib: **"Bu gün ölkəmizdə Ümummilli Liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, kəndlərimiz, qəsəbələrimiz, rayonlarımız, şəhərlərimiz abadlaşır, əhalinin rahat yaşayışı təmin edilir. Şahbuz rayonunun Badamlı qəsəbəsi də abadlaşan yaşayış məntəqələrindəndir. Dövlət qayğısı nəticəsində ötən dövrdə qəsəbədə kompleks quruculuq işləri görülmüşdür. Məktəb və qəsəbə mərkəzi tikilmiş, mənzillər dayanıqlı təbii qaz, elektrik enerjisi və rabitə xidməti ilə təmin olunmuşdur. Bu gün isə qəsəbə yolu və xidmət mərkəzi istifadəyə verilir".**

Ali Məclisin Sədri deyib: **"Ötən əsrin 90-cı illərinin ağır dövrü Badamlı qəsəbəsində də insanların rahatlığının pozulmasına səbəb olmuş, çətinliklər yaranmışdır. Məlum olduğu kimi, bu qəsəbə təbii sərvətimiz olan Badamlı suyuna görə tanınıb. 1945-ci ildən sonra Badamlı suyu istehsal olunmağa başlanıb. Keçmiş Sovetlər Birliyinin bütün respublikalarına Badamlı suyu göndərilmiş, bu su həm Badamlı qəsəbəsini və Şahbuz rayonunu, həm də Naxçıvan Muxtar Respublikasını və Azərbaycanı tanıtmışdır. Lakin ötən əsrin 90-cı illərindəki ağır günlər zavodun da fəaliyyətinin pozulmasına səbəb olmuşdu. Ötən dövrdə dövlətimizin qayğısı nəticəsində qəsəbənin inkişafı təmin edilmiş, Badamlı suyunun əvvəlki şöhrəti özünə qaytarılmışdır. Vaxtilə yalnız keçmiş Sovetlər Birliyində tanınan bu su hazırda dünyanın müxtəlif ölkələrinə də ixrac olunur. Qəsəbədə kompleks quruculuq işlərinin görülməsi və Badamlı suyunun istehsalı üçün müasir zavodun inşa olunması sakinlərin rahat yaşayışına xidmət edir. Eyni zamanda, həyata keçirilən bu tədbirlər qəsəbədə məskunlaşmanı daha da artıracaqdır. Ona görə də sakinlər tikilənləri, qurulanları qoruyub saxlamalı, onlardan düzgün istifadə edərək gələcək nəsillərə çatdırmalı, yaşıllıqlar artırılmalıdır".**

Ali Məclisin Sədri qəsəbə sakinlərini bir daha təbrik edib, onlara rahat həyat arzulayıb.

Sonra çıxış edən sakin İxtiyar Quliyev yaradılan şəraitə görə qəsəbə sakinləri və rayon ictimaiyyəti adından minnətdarlıq edib.

* * *

Quruculuq işləri aparılarkən Badamlı qəsəbəsindəki 48 mənzilli 6 yaşayış binası da yenidən qurulub, dam örtükləri dəyişdirilib, elektrik və su sistemi yenilənib, fasadları təmir olunub. Binaların həyətlərində də abadlıq işləri aparılıb, asfalt döşənib, yaşıllıq sahələri salınıb.

### BADAMLI MİNERAL SUYU MÜASİR ZAVOD KOMPLEKSİNDƏ İSTEHSAL OLUNACAQ

Sentyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Badamlı" Mineral Sular Zavodunun inşası ilə maraqlanıb.

Bildirilib ki, zavodda və ikimərtəbəli inzibati binada əsas tikinti işləri başa çatdırılıb. Zavodun ərazisinə asfalt örtük salınmış, Badamlı suyunun mənbəyi yenidən qurulmuşdur. Su öz axını ilə zavoda veriləcəkdir. Xammal anbarı, istehsal və hazır məhsul sahələrindən ibarət olacaq zavodda Fransanın "SİDEL" şirkətinin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılır. Üç istehsal xətti olacaq zavodda qazlı və qazsız olmaqla müxtəlif ölçülü qablaşdırmada 15 növdə Badamlı suyu istehsal ediləcəkdir. İstehsal prosesi tam avtomatlaşdırılacaq, məhsulların keyfiyyəti nəzarətdə saxlanılacaqdır. İstifadəyə verildikdən sonra zavodda 200-ə yaxın iş yeri açılacaqdır.

Ali Məclisin Sədri zavodda işlərin ilin sonuna qədər başa çatdırılması, ərazinin abadlaşdırılması və yaşıllıqların salınması barədə tapşırıqlar verib.

# Elçin Mirzəbəyli: Yaranmış problem Ermənistanı investisiyalar üçün cəlbedici olmayan ölkəyə çevirir



Ermənistan ərazisində qızıl ehtiyatlarına görə ikinci sırada duran "Amulsar" mədəninin istismarına lisenziya 2015-ci ildə "Lydian Armenia" şirkətinə verilib. Prosesdə Sarkisyan hakimiyyəti və Amerika-Ermənistan Ticarət Palatası fəal şəkildə iştirak ediblər. Paşinyan hakimiyyətə gəldikdən sonra isə hələ mədənin istismarına başlamayan "Lydian Armenia" şirkətində 3 audit yoxlaması aparılıb. Buna baxmayaraq, "Lydian Armenia" şirkətinin əməkdaşları hələ də mədənin ərazisinə buraxılmırlar.

Siyasi ekspert Elçin Mirzəbəyli AZƏRTAC-a açıqlamasında bildirib ki, Amerika-Ermənistan Ticarət Palatası Ermənistanın baş naziri Nikol Paşinyana ünvanladığı məktubda onun bu məsələdə manipulyativ mövqe sərgilədiyinə eyham vurur. Yaranmış problem birmənalı olaraq neqativ mesajlar verir və Ermənistanı investisiyalar üçün cəlbedici olmayan ölkəyə çevirir. Bu vəziyyət sübuta yetirir ki, xarici investorlar müdafiəsizdir və ədalətsiz münasibətlə qarşılaşırlar.

Ekspert vurğulayıb ki, yaranmış vəziyyət Nikol Paşinyanın Ermənistana sərmayə axınının olacağı barədə proqnoz və vədlərinin əfsanədən başqa bir şey olmadığını da sübuta yetirir. Amerika-Ermənistan Ticarət Palatasının məktubunda Ermənistanın öz öhdəliklərinə sadiq qalmayan bir dövlət olduğu xüsusi vurğulanır. Ermənistanda Amerika-Ermənistan Ticarət Palatasının təşviqi ilə 140 şirkət fəaliyyət göstərir. Palata həmin şirkətlərə də Ermənistanın investisiya üçün əlverişsiz ölkə olduğu barədə xəbərdarlıq edib və onların hüquqlarının müdafiə olunmasında problemlərin yaranacağını bildirib. Mövcud durum sübuta yetirir ki, Nikol Paşinyan nəinki vəd etdiyi kimi Ermənistana investisiya axınını cəlb etmək gücündə deyil, hətta bu günədək erməni diasporunun Ermənistana daşıdığı investisiyaları da qoruyub saxlamağı bacarmır.

E.Mirzəbəyli vurğulayıb ki, maraqlı məqamlardan biri də təkcə ABŞ investorlarının deyil, hətta Rusiya və Avropa İttifaqı ölkələrinə aid olan şirkətlərin də Ermənistanı tərk etmələri və investisiyalarını geri çəkmələridir. Beləliklə, Ermənistanın siyasi və diplomatik müstəvidə etibarsız ölkə statusu sürətlə iqtisadi sferaya daşınır ki, bu da işğalçı ölkənin yeni hakimiyyətinin də verdiyi vədlərin və gurultulu proqnozların əsassız olduğunu təsdiqləyir.

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 10-13 saylı binaları üzrə 10 mənzil, həmçinin 14, 15, 16, 17, 18, 19, 20, 21 və 22 saylı binalarında yerləşən 560 mənzilin, ümumilikdə 570 mənzilin satışı 16 oktyabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 18 oktyabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 00:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdirlər. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdirlər.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 570 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 30.01.2017-ci il tarixli 23206 nömrəli, 31.01.2017-ci il tarixli 23210 nömrəli və 17.03.2017-ci il tarixli 23364 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 441,56 | 12 | 1 | 2 | 1 | 56,87 | 70,44 | "Hovers Group" MMC / Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 10 oktyabr 2018-ci il |
| 11 | 665,32 | 9 | 2 | 2 | 3 | 54,65-55,07 | 66,91 | | |
| 12 | 441,56 | 12 | 1 | 3 | 1 | 70,46 | 84,47 | "SMT İnşaat" MMC / Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44 | 1 aprel 2019-cu il |
| 13 | 665,32 | 9 | 2 | 2 | 5 | 54,73-55,07 | 66,91 | | |
| 14 | 1507,97 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "Caspian CLC" MMC / Bakı şəhəri, Binəqədi rayonu, keçid 1410, 6-cı mikrorayon, ev 15/2, mənzil 89 | 1 aprel 2019-cu il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 15 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 16 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "AS Tikinti" MMC / Bakı şəhəri, Nəsimi rayonu, 28 May küçəsi, ev 10, mənzil 18 | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 17 | 1507,97 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 18 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "Araz İnşaatçı" MMC / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 19 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 20 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "MƏK-AN" MMM / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 26N. | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 21 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 22 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə (yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin edən vətəndaşlar)**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 652** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 997** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **284-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 992 | **26 933** |
| 2 | 47 652 | 4 765 | **42 887** |
| 3 | 65 997 | 6 600 | **59 397** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

# "Amulsar" problemi: Paşinyan üçün siyasi dilemma

Ermənistan hakimiyyətinin səbatsız xarici siyasət yeritdiyi çoxdan məlumdur. Nikol Paşinyan baş nazir seçiləndən sonra isə vəziyyət daha da ağırlaşıb. Ekspertlər onun siyasi karyerasının özü üçün faciəvi sonluqla bitəcəyi haqqında proqnozlar verirlər. Son zamanlar bunu təsdiq edən hadisələr artıb. Ermənistan cəmiyyəti "Amulsar" qızıl mədəni ətrafında yaranmış siyasi böhranın gərginliyi altındadır. Hazırda bu problemi həll etmək mümkün olmur. Çünki N.Paşinyana həm Moskvadan, həm də Vaşinqtondan təzyiq göstərilir. Ümumiyyətlə, bu cür vəziyyətin yaranması səbəbləri arxasında hansı məqamların dayandığı ilə bağlı müxtəlif fikirlər vardır. Biz məsələnin üzərində geosiyasi kontekstdə geniş dayanmağa ehtiyac görürük.

### "QISIR DAĞ"DAKI MƏDƏN: BAŞ NAZİRİN BAŞAĞRISI

Ermənistanın baş nazirinin siyasi karyerasını dar ağacında bitirmə ehtimalının olduğu haqqında bir müddətdir ki, KİV-də proqnozlar verilir. Məsələ konkret olaraq onun asılıb-asılmamasında deyil. Obrazlı şəkildə N.Paşinyanın idarəçilik üsulunun və geosiyasi kursunun perspektivinin olmadığı ifadə edilir. Təcrübə göstərir ki, doğrudan da, Ermənistan hakimiyyəti olduqca ziddiyyətli və gərgin bir vəziyyətlə üzləşib.

Erməni mətbuatı artıq bir aydır ki, "Amulsar" mədəni haqqında informasiyalar yayır. "Amulsar" sözü "Qısır dağ" kimi tərcümə olunur. Ancaq 2006-cı ildə orada 31 milyon ton filiz, 40 ton isə qızıl olduğunu aşkarladılar. Kəşfiyyat işlərini 10 il müddətində Britaniya-Amerika şirkəti olan "Lydian Armenia" aparıb. 2016-cı ildən isə onun istismarına start verilib. Statistik məlumata görə, şirkət bu işə 400 milyon ABŞ dolları sərmayə qoyub. Ermənistan hakimiyyəti bu məbləği ölkə tarixinin ən böyük sərmayə proqramı adlandırır. Əlbəttə, Ermənistan üçün 400 milyon dollar böyük rəqəm sayılmalıdır, çünki bu ölkə üçün 100 milyon da çox sayılır. Lakin Azərbaycanın həyata keçirdiyi layihələr fonunda 400 milyon olduqca xırda rəqəmdir.

Hər bir halda ermənilərin bu "nəhəng" layihə ilə fəxr etməsi çox çəkmədi. Ekspertlər vurğulayırlar ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev İrəvana bu il avqustun 12-13-də səfər edəndən sonra qızıl mədənini istismar edənlərin qara günləri başlayıb. N.Paşinyan N.Patruşev gedəndən dərhal sonra "suveren və müstəqil" qərar qəbul edərək, "Amulsar" işi ilə bağlı olan yüksək vəzifəli erməni işdən çıxarıb, eyni zamanda, qızıl mədəninin istismarına qadağa qoyub.

Avqustun 15-də isə Ermənistan İstintaq Komitəsinin rəhbəri Ayk Qriqoryan "Earth Link & Advanced Resources Development" (ELARD) beynəlxalq ekspert qrupunun geniş bir rəyini təqdim edib. Orada göstərilib ki, "Amulsar" ekoloji təhlükə törətmir. Yaxşı qərarlarla isə riskləri idarə etmək olar. Bundan sonra avqustun 19-da baş nazir N.Paşinyan çıxış edərək "Amulsar"ı istismar etməyin mümkün olduğunu yenə də "suveren və müstəqil" qərarla elan edib. Əsl hengamə də bundan sonra başlayıb.

Məsələ ondan ibarətdir ki, həmin çıxışında N.Paşinyan işarə verib ki, "Amulsar"ın istismarının qadağan olunması qərarı bir sıra başqa şirkətlər tərəfindən siyasiləşdirilir. Onlar pul verərək insanları yolları kəsməyə təhrik edir və qızıl-filiz yataqlarını özləri ələ keçirmək istəyirlər. Burada maraqlısı odur ki, N.Paşinyan üçün "bumeranq effekti" başlayıb. Onun bir vaxtlar özünün hakimiyyətə gəlmək üçün istifadə etdiyi üsuldan indi özünə qarşı istifadə edirlər.

Sonra aydın olacaq ki, N.Paşinyana badalaq gələnlər arasında onun parlamentdəki müttəfiqi Qaqik Sarukyan da var. Bu adamın həmin mədənə iddialı olduğu üzə çıxıb. Q.Sarukyan sentyabrın 9-da çıxış edərək belə deyib ki, əgər xalq razı deyilsə, iddiasından əl çəkə bilər. İndi mədəni istismar edən şirkət isə 400 milyondan danışır, lakin real elə bir mənzərə yoxdur. Yəni Q.Sarukyan da hesab edir ki, "Amulsar" ilə bağlı fərqli qərar olmalıdır.




Erməni ekspertlər bunları Q.Sarukyanın ikiüzlülüyü kimi qiymətləndiriblər. Onun bir vaxtlar Robert Koçaryana, Serj Sarkisyana və başqa siyasətçilərə eyni zamanda xidmət etməsini xatırladıblar. Yekun olaraq belə qənaətə gəlinir ki, "Amulsar" məsələsi də siyasi aspektlidir. Əsas problem bu prosesin arxasında kimlərin dayanmasındadır. Baş nazir N.Paşinyan avqustun 23-də Cermuxa gedərək etirazçılarla söhbət edib. Fəallar "Amulsar" qoruq kimi qalsın" şüarı ilə çıxış edirlər. Ancaq insanlar N.Paşinyanın dediklərini qəbul etməyiblər. Avqustun 28-də baş nazir ELARD nümayəndələri ilə görüş keçirib və ondan sonra yenidən müəmmalı danışıb. Aydın görünürdü ki, baş nazir tərəddüd edir. Bu hadisədən "Lydian Armenia" narazılığını bildirib və aranı qatan şirkətlər haqqında Ermənistan hakimiyyətindən informasiya istəyib.

### SİYASİ TƏRƏDDÜDLƏR: BUMERANQ NİKOLA QAYIDIR

Ondan bir gün sonra Rusiyanın Ermənistandakı səfiri Cermuxdakı istirahətindən foto paylaşıb. Bundan ekspertlər baş verənlərin arxasında Moskvanın dayandığı nəticəsini çıxarıblar. Görünür, sentyabrın 2-də ABŞ-ın ticarət palatasının məsələ ilə bağlı mövqe bildirməsi də təsadüfi deyil. Amerikalılar N.Paşinyanın bütün bu işlərin arxasında kimlərin dayandığını aydınlaşdırıb tədbir görəcəyinə ümid edirlər.

Bütün bunlardan sonra N.Paşinyan daha geniş tərkibdə iclas keçirərək, müzakirələr aparıb, onların nəticəsini sentyabrın 9-da elan edib. Yenidən mədənin istismar edilməsindən bəhs edib. Buna siyasilər də reaksiya veriblər. "Sasna Srer" qruplaşmasının rəhbəri Jirayr Səfilyan N.Paşinyanla görüşərək, "Amulsar"ın istismarı qərarından dönməyin onun üçün çox pis qurtara biləcəyini, eyni zamanda, Ermənistanın beynəlxalq etibarının sıfıra enəcəyini bildirib.

Konkret olaraq, J.Səfilyan deyib ki, fürsət gözləyən qüvvələr küçələrdə etiraz aksiyaları təşkil edəcəklər və baş naziri öz üsulu ilə hakimiyyətdən yıxacaqlar. Bununla həm Ermənistanın demokratikliyi, həm də "məxməri inqilab" nağılları puç olacaq. Üstəlik, N.Paşinyan məhkəmə qarşısında cavab verəcək. Onu siyasi mənada dar ağacına çəkəcəklər.

Deməli, əslində, "Amulsar" hadisələri N.Paşinyanı öz metodu ilə vurmaq üçündür. Bir vaxtlar küçədə qətiyyətli görünən N.Paşinyan indi nə edəcəyini qətiləşdirə bilmir. Bir ay ərzində üç dəfə qərarını dəyişib. Moskva təzyiq edəndə, onun sözünü deyir, Vaşinqton etiraz edəndə isə dərhal mövqeyini dəyişir. Bu, tipik erməni tərəddüdüdür və onu ifadə edir ki, Ermənistan hələ də dövlət kimi formalaşa bilməyib.

Həmin kontekstdə R.Koçaryan tərəfdarlarının da etirazlara başlaması maraq doğurur. Ekspertlər hesab edirlər ki, bu iki hadisə bir-biri ilə bağlıdır. Eyni zamanda, erməni KİV-in məlumatlarına görə, Kremldən N.Paşinyana R.Koçaryan məsələsini müsbət həll etmək üçün on gün vaxt verilib.

Bu deyilənlər Ermənistanla bağlı maraqlı geosiyasi nəticələr çıxarmağa əsas verir. Məlum olur ki, Ermənistan hakimiyyəti növbəti dəfə dalana dirənib - o, böyük güclərin maraqları arasında sıxılır. Bundan başqa, Rusiyanın "Amulsar" problemini qaldırması yalnız R.Koçaryanla bağlı görünmür. Kreml həmin addımla bütün dünyaya nümayiş etdirir ki, N.Paşinyanın suverenlikdən, iri layihələrdən, böyük sərmayə qoyuluşundan dəm vurmasının real əsası yoxdur. Bu məsələlərdə əsl söz sahibi Moskvadır. Buna görədir ki, artıq 400 milyon dollar sərmayə qoymuş Qərb şirkəti belə Ermənistandan cibiboş yola salına bilər.

Bunlar N.Paşinyanın siyasi olaraq tam iflası deməkdir. Moskva bir zərbə ilə onu yerlə-yeksən edir. Təbii ki, Ermənistanda etiraz aksiyaları bundan sonra yeni mərhələdə davam edəcək. N.Paşinyan indi hakimiyyət dəhlizindən küçəyə baxır. Yəqin ki, özünü orada görmək istərdi. Çünki hakimiyyətdə olmaqdan küçədə ağzına gələni danışmaq daha asandır. Ancaq artıq gecdir. Ona sübut edirlər ki, demokrat və ya liberal olmaq asan deyil. Bunun üçün güclü cəmiyyət, siyasi ənənə və əsl demokratik ruh lazımdır. Bunların heç biri isə ermənilərin tarixində olmayıb.

Belə görünür ki, N.Paşinyanın siyasi rəqibləri daha da fəallaşacaqlar. Onlar hiss edirlər ki, N.Paşinyan rasionalizmdə və real siyasətdə çox zəifdir. Onun məğlubiyyəti qaçılmazdır. Ermənistanın daxili ziddiyyətlər içində çırpınması onun regiondakı geosiyasi mövqeyinə də təsir edəcək. Bu baxımdan hazırkı erməni iqtidarının, ümumiyyətlə, siyasi perspektivinin olmadığı nəticəsini çıxarmaq çətin deyildir.

Ancaq əsas məsələ bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsindədir. Burada ümumi vəziyyət sabitlikdən çıxa bilər. Kənardan olan təsirlərin neytrallaşdırılması mürəkkəbləşir, çünki mübarizə aparanlar çox güclüdürlər. Qalır yerli dövlətlərin konstruktiv siyasət yeritməsi. Ermənistan isə hələlik bunun iqtidarında deyil.

**Newtimes.az**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində fındıqçılığın inkişafı daim dövlətin diqqət mərkəzindədir

*Fındıqçılıq sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər regionlarda məhsuldarlığın artmasını təmin edib*



Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan inkişaf yolunda inamla irəliləyir, möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir. Bütün sahələrdə yüksək inkişaf göstəricilərinin əldə olunması fonunda gələcəyə dair optimist proqnozlar verilir, ölkəmizin qarşısında yeni perspektivlərin açıldığı vurğulanır. Azərbaycanın dinamik tərəqqisindən bəhs edərkən, heç şübhəsiz, regionların sosial-iqtisadi inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilməsini xüsusi vurğulamaq lazımdır. Regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının uğurla icra olunması bölgələrdə iqtisadi potensialın və aktivliyin artmasına mühüm töhfələr verməklə yanaşı, qarşıda duran strateji hədəflərə çatmağa imkan yaradır. Son olaraq Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti Fərmanla təsdiqlənən “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində də işlər müvəffəqiyyətlə icra olunur. Məhz bu proqramlar çərçivəsində həyata keçirilən işlər aqrar sahənin inkişafını da şərtləndirib.

Xüsusi olaraq vurğulamaq gərəkdir ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində də həyata keçirilən kompleks tədbirlər ölkənin ümumi sosial-iqtisadi tərəqqisinə öz töhfəsini verir. Təsadüfi deyil ki, ölkəmizdə digər sahələr kimi aqrar sahə də keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Kənd təsərrüfatının inkişafı istiqamətində müəyyənləşdirilmiş strateji əhəmiyyətli vəzifələrdən biri ixracqabiliyyətli məhsul istehsalının artırılmasıdır. Bu kontekstdə əlverişli coğrafi-iqlim xüsusiyyətləri, münbit torpaqlar, əmək ehtiyatları, tarixdən gələn zəngin ənənələr Azərbaycanın bölgələrində ixracqabiliyyətli məhsul istehsalının artırılması üçün geniş perspektivlər yaradır. Bu məqamda qeyd etmək yerinə düşər ki, Azərbaycanın regionlarından ixracın artırılması baxımından perspektivli sahələrdən biri də fındıqçılıqdır. Ölkəmizdə bu sahənin inkişafı daim diqqətdə saxlanılır. Məlumat üçün qeyd edək ki, cari ilin yanvar-iyul aylarında ölkədən 13 min 167 ton meşə fındığı ixrac olunub. Qeyd edilən dövrdə ixrac edilən meşə fındığının dəyəri 72 milyon 67 min ABŞ dolları olub.

Qeyd etdiyimiz kimi, fındıqçılığın inkişafı istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir, səmərəli nəticələr əldə olunur. Ayrı-ayrı rayonlarda əldə edilən məhsuldarlığı əks etdirən statistik göstəricilər də bunu təsdiqləyir. Yeri gəlmişkən, İsmayıllı rayonunda fındıq yığımı davam edir və artıq bağlardan 153 ton məhsul toplanılıb. Rayonda fındıq bağlarının sahəsi 2091 hektara çatdırılıb. Bağların 87 hektarı bar verəndir. Topçu, Qurbanəfəndi kənd, İsmayıllı şəhər ərazi dairələrində məhsul yığımı daha mütəşəkkil aparılır. Cari mövsümdə bağlardan 300 tonadək fındıq tədarük olunacağı gözlənilir.

Xaçmazlı təsərrüfatçılar isə avqustun ilk günlərindən fındıq bağlarından məhsul yığımına başlayıblar. Fındıq bağlarında məhsuldarlıq ötən illərlə müqayisədə daha çoxdur. Məhsulun bol, qiymətin isə sərfəli olması bağ sahiblərinin daha çox gəlir əldə edəcəyini deməyə əsas verir. Rayonun Hacıəhmədoba kəndindən olan təsərrüfatçı Fazil Əhmədov 0,5 hektar fındıq bağından hər il 500-600 kiloqram məhsul toplayır. **“Yığıma yeni başlamışıq. Bu il məhsuldarlıq ötən ilkindən yaxşıdır. Qiyməti də biz kəndlilərə sərf edir. Məhsulu özümüz yığırıq. Bəzən yığım üçün günəmuzd fəhlələr də çağırırıq. Havalar yaxşı keçsə, bağı sentyabrın axırına kimi yığıb qutaracağıq”,** - deyə təsərrüfatçı bildirib. Hazırda bağlarda məhsul yığımı ilə yanaşı, fındığın qabıqdan təmizlənməsi və qurudulması prosesi də həyata keçirilir. Əksər təsərrüfatçılar məhsulu daha münasib qiymətə satmaq üçün anbarlarda saxlayırlar. Məhsul əsasən payız-qış aylarında yerli bazarlarda satılır. Bununla yanaşı, rayonda 10-dan çox fındıq qəbulu məntəqəsi mövcuddur və məhsulu fermerlərdən sərfəli qiymətə alırlar. Xaçmazlı fermerlər bir neçə ildir k, ağacdan yığılan fındığın qabıqdan təmizlənməsi üçün xüsusi aqreqatdan istifadə edirlər. Bu texnologiyanın tətbiqi təsərrüfatçıların işini xeyli yüngülləşdirir. Belə ki, bağından 1 ton fındıq əldə edən təsərrüfatçı əvvəllər bu məhsulu qabığından təmizləmək üçün ailə üzvləri ilə birlikdə 7-10 gün vaxt sərf etməli olurdu. Fındıq təmizləyən texnika isə bu işi cəmi bir saata görür. Traktorçu Alim Əhmədov deyir ki, fındıq toplanmasına başlanan gündən sifarişlərin ardı-arası kəsilmir. Gün ərzində müxtəlif kəndləri gəzərək 3-4 ton fındıq təmizləyir. Xidmət haqqı olaraq hər 100 kiloqrama görə 3 kiloqram təmizlənmiş fındıq alır. Fermerlər dövlətin onlara ayırdığı güzəştlərdən faydalanaraq bağlara daha yaxşı qulluq edirlər. Rayonda son 3 ildə fındıq bağlarının sahəsi iki dəfəyədək artırılaraq 10 min hektara çatdırılıb.

Zaqatala rayonunda da kənd təsərrüfatının ənənəvi və ixrac potensialı yüksək sahələrindən biri də fındıqçılıqdır. Fındıq istehsalı rayonun kənd əhalisinin əsas qazanc mənbələrindən biridir. Artıq fındıq bağlarında builki mövsümün ilk məhsulunun yığımına başlanılıb. Cari ildə bağlardan 15 min tondan çox fındıq tədarük olunması gözlənilir. Ümumiyyətlə, Prezident İlham Əliyevin fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər Zaqatalada yeni fındıq bağlarının salınması istiqamətində davamlı iş aparılır. Belə ki, 2018-ci ildə rayon ərazisində 1353,5 hektar, bu ilin yaz aylarında isə 255 hektar sahədə yeni fındıq bağları salınaraq, mövcud fındıq bağlarının ümumi sahəsi 19 min 760 hektara çatdırılıb. Bu bağların 10 min 571 hektarı barverəndir. Ötən il rayonun fındıq bağlarından 15 min 69 ton məhsul tədarük olunub. Fındıq istehsalı 2017-ci illə müqayisədə 1 min 647 ton, 2016-cı illə müqayisədə isə 6 min 159 ton artıb.

Dövlətimizin başçısının fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər Qəbələ rayonunda da davamlı iş aparılır. Belə ki, son üç ildə rayon ərazisində 2 min 137 hektar sahədə yeni fındıq bağları salınaraq mövcud fındıq bağlarının ümumi sahəsi 6 min 247 hektara çatdırılıb. Hazırda rayonda 4 min 827 hektar bar verən fındıq bağları var. Bir neçə gündür ki, fındıq bağlarında builki mövsümün ilk məhsulunun yığımına başlanılıb. Cari ildə bağlardan 9 min tonadək fındıq yığılması gözlənilir. Ötən il Qəbələnin fındıq bağlarından 9 min 200 ton məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 1800 ton artıb.

Qusar rayonunun da fındıq bağlarında məhsul yığımının qızğın çağıdır. Ümumiyyətlə, fındıq istehsalı rayonun iqtisadiyyatında mühüm rol oynayan sahələrdəndir. Rayonda 6 min hektardan çox fındıq bağı var. Fındıq bağlarında məhsul yığımına avqust ayının əvvəllərindən başlanılıb. Fermerlər ötən ilə nisbətən daha çox məhsul əldə edirlər. İmamqulukənd İnzibati Ərazi Dairəsinə daxil olan kəndlər rayonda fındıq bağlarının daha çox becərildiyi ərazilərdir. Burada ümumilikdə 450 hektar fındıq bağı mövcuddur. Bunun da 100 hektarı son iki ildə salınıb. Qusarlı fermerlər bildirirlər ki, fındıqçılığın inkişafı ölkəmizə xaricdən valyuta cəlb olunmasında mühüm rol oynayır. Bu isə öz növbəsində regionların inkişafına güclü təkan verir. Təsərrüfatçı Şaban Qurbanovun sözlərinə görə, indi fındıqçılıqla məşğul olmaq daha asan və sərfəlidir. **“Əvvəllər çətin idi. İndi təzə kombaynlar var. Fındığın qabıqdan təmizləməsi daha tez və asan başa gəlir. Əvvəllər bir-bir qabıqdan çıxardırdıq. İndi kombayn gün ərzində 5-6 ton təmizləyir”,** - deyə fermer Ş.Qurbanov söyləyib. Hazırda Qusarın bağlarında məhsul yığımı ilə yanaşı, fındığın qabıqdan təmizlənməsi və qurudulması prosesi də həyata keçirilir. Əksər təsərrüfatçılar məhsulu daha münasib qiymətə satmaq üçün anbarlarında saxlayırlar. Qusarlı fındıqçılar düzgün suvarmaya və aqrotexniki qaydalara riayət etməklə hər il yüksək nəticə əldə edirlər. Kənd sakinləri yeni bağların salınmasına da maraq göstərirlər. Bu bağlarda əsasən rayonun iqlim şəraitinə uyğun yerli sortlar əkilir. Hazırda barverən bağlarda məhsul yığımı yeni əkilən sahələrdə isə suvarma, becərmə işləri həyata keçirilir. Rayon ərazisində ümumilikdə 6 min 300 hektar fındıq bağı mövcuddur. Bu bağların 3 min 200 hektarı barverəndir. Cari ildə bağlardan 4 min tona yaxın məhsul toplanacağı proqnozlaşdırılır.

Oğuz rayonunda isə gəlirli sahələrdən olan fındıqçılığın inkişaf etdirilməsi məqsədi ilə payız aylarında daha 300 hektarda yeni fındıq bağlarının salınması nəzərdə tutulur. Beləliklə, son illər rayonda yeni salınan fındıq bağlarının ümumi sahəsi 2 min hektara çatdırılacaq. Hazırda rayonda 3 min 695,5 hektar fındıq bağları var. Artıq bağlarda builki mövsümün ilk məhsulunun yığımına başlanılıb. Ötən il Oğuzun fındıq bağlarından 1 min 106 ton məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 203 ton artıb.

Beləliklə, Azərbaycanın bölgələrində fındıqçılığın inkişafı daim dövlətin diqqət mərkəzindədir. Kənd təsərrüfatının ənənəvi və ixrac potensialı yüksək sahələrindən biri olan fındıqçılığın inkişafı istiqamətində görülən səmərəli tədbirlər müsbət nəticələrin əldə olunmasını - məhsuldarlığın artmasını təmin edib.

**Nurlan QƏLƏNDƏRLİ**

# Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasiminin yoxlama məşqi olub





Bakının ev sahibliyi edəcəyi bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasiminin sentyabrın 11-də yoxlama məşqi keçirilib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 16-dan 22-dək davam edəcək dünya çempionatında 61 ölkədən 300-dən çox gimnast mübarizə aparacaq. Çempionatın açılış mərasiminin bədii hissəsi “Şərq nağılı” adlanır. Təşkilatçılar bu dəfə də rəngarəng, bənzərsiz və tamaşaçıları nağıllar aləminə səyahətə “aparacaq” şou vəd edirlər. Mərasimdə Şərq motivləri əsasında səhnələşdirilmiş kompozisiya ilə yanaşı, Azərbaycanın məşhur ifaçılarının iştirakı da nəzərdə tutulub. Həmçinin mərasimdə 200 yerli gimnast çıxış edəcək.

Açılış mərasimində dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış mahnını səsləndirəcək.

Dünya çempionatının səfiri çoxqat dünya çempionu, Olimpiya Oyunları mükafatçısı, məşhur keçmiş rusiyalı gimnast Yana Batırşina da yarışları tamaşaçılarla birlikdə izləyəcək.

Yarış zamanı Azərbaycan Gimnastika Federasiyasının rəsmi talismanı, hər kəsin sevimlisi “Qur-Qur” da tamaşaçılarla birlikdə olacaq. Bundan başqa, yarış boyunca tamaşaçıları maraqlı müsabiqələr və əyləncəli anlar gözləyir.

Qeyd edək ki, çempionatda ölkəmizi 9 gimnast təmsil edəcək. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

# Mariana Vasileva: Bakıda keçiriləcək dünya çempionatının açılış mərasimində 200 yerli gimnast çıxış edəcək




Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatı Olimpiya Oyunları öncəsi ən vacib yarışdır. Çünki çempionat 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

AZƏRTAC xəbər verir ki, bunu bədii gimnastika üzrə Azərbaycan milli komandasının baş məşqçisi Mariana Vasileva sentyabrın 11-də dünya çempionatının açılış mərasiminin yoxlama məşqi zamanı jurnalistlərə müsahibəsində deyib.

Yarışda 61 ölkədən 300-dən çox gimnastın mübarizə aparacağını bildirən baş məşqçi qeyd edib: **“Azərbaycan çempionata 9 idmançı ilə qatılacaq. Fərdi proqram üzrə liderlərimiz Zöhrə Ağamirova və Veronika Qudisdir. Həmçinin turnirdə ölkəmizi gənc gimnastlar Yelizaveta Luzan və Məryəm Səfərova da təmsil edəcəklər. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.**

**Açılış mərasiminə hazırlıq yüksək səviyyədə gedir. Mərasimdə 200 yerli gimnastın çıxışı nəzərdə tutulub. Açılışın bədii hissəsi isə “Şərq nağılı” adlanır. Bütün tamaşaçıları mərasimə və yarışa baxmağa dəvət edirəm”.**

# “AzerTelecom” “Caspian Energy Forum Baku-2019”-a tərəfdaş qismində dəstək verir




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi “AzerTelecom” şirkəti sentyabrın 19-da Bakı şəhərində keçiriləcək “9-cu Beynəlxalq Caspian Energy Forum Baku - 2019” tədbirinə tərəfdaş qismində dəstək verir. Bu barədə şirkətdən verilən məlumatda qeyd olunub.

“AzerTelecom” şirkətinin baş direktoru Fuad Allahverdiyev bildirib ki, şirkət uzun illərdir “Caspian European Club”u dəstəkləyir və təşkilatla sıx əlaqələrə sahibdir. **“Sayca 9-cu olaraq keçiriləcək “Beynəlxalq Caspian Energy Forum Baku-2019” tədbirinin tərəfdaşı olmaqdan məmnunuq. Forum dövlət və özəl sektor, həmçinin beynəlxalq və regional təşkilatlardan olan çoxsaylı nümayəndələri bir araya gətirəcəkdir. Əminik ki, forum ən müxtəlif sahələrdə faydalı fikir mübadiləsinin, müzakirələrin aparılması və yeni biznes əlaqələrinin qurulmasına öz töhfəsini verəcəkdir”,** - deyə Fuad Allahverdiyev qeyd edib.

“Caspian Energy Club”un birinci müavini və baş icraçı direktoru Telman Əliyev bildirib ki, ölkənin inkişaf edən telekommunikasiya sektorunda qabaqcıl şirkətlərdən biri olan “AzerTelecom” şirkəti ilə “Caspian European Club” arasında artıq uzun müddətdir səmərəli əməkdaşlıq əlaqələri vardır və bu əlaqələr davamlı şəkildə inkişaf edir. Şirkət “Caspian European Club” tərəfindən keçirilən ən müxtəlif tədbirlərdə yaxından iştirak edir və əməkdaşlığa öz töhfəsini verir.

“9-cu Beynəlxalq Caspian Energy Forum Baku - 2019” “Əsrin müqaviləsi”nin imzalanmasının 25 illik və “Caspian Energy” jurnalının fəaliyyətinin 20 illik yubileyinə həsr olunub. Forumun işində dünyanın 50 ölkəsindən 1500-dən çox nümayəndə iştirak edəcək və forum üç sessiyadan ibarət olacaq. Birinci sessiya neft-qaz sektorunun, sənayenin inkişafı mövzusuna və Azərbaycanda infrastruktur layihələrin həyata keçirilməsinə həsr olunacaq. İkinci sessiyada maliyyə sektorunun inkişafı məsələsinə toxunulacaq və Azərbaycanda investisiyalaşdırma imkanları barədə ətraflı danışılacaq. İkinci sessiyada əsas diqqət kiçik və orta biznesin inkişafına yönəldiləcək. Üçüncü sessiyada İKT layihələrinin uğurla həyata keçirilməsi, Azərbaycanın aqrosənaye kompleksinin və turizm potensialının inkişafı barədə geniş hesabat veriləcək.

# Sosial şəbəkədən çox istifadə edənlər üçün “Nar”dan əla fürsət!




İnternet və sosial şəbəkədən çox istifadə edənlər üçün ən sərfəli tarif sayılan “CavanNar”-a qoşulanların sayı artmaqdadır. Belə ki, son 1 ayda ikiqat internetdən yararlanmaq imkanı verən “CavanNar” istifadəçilərinin sayı 17% artıb. Qeyd edək ki, “CavanNar 9” abunəçilərə aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə verir. “CavanNar 6” isə 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. Tariflərə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər.

Hər zaman müştərilərinin tələblərini nəzərə alan “Nar”, “CavanNar” tarifi üçün təkliflərini daha da artırıb. Belə ki, artıq “CavanNar” abunəçilərinə əlavə internet paketləri sifariş etmək imkanı verir. İstifadəçilər tələblərinə uyğun olaraq 500 MB və ya 1GB əldə edə bilərlər.

Əlavə internet paketlərini aktivləşdirmək üçün müvafiq olaraq *777#2#YES (500MB) və *777#4#YES (1GB) kodlarını yığmaq lazımdır. Eyni əməliyyatı daha asan və qısa zamanda həyata keçirmək üçün yeni istifadəyə verilmiş “Nar+” mobil tətbiqindən də yararlanmaq mümkündür. Qeyd edək ki, əlavə internet paketlərindən aylıq abunə haqqını ödədikdən sonra istifadə etmək olar.

“CavanNar” paketləri haqqında daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək mümkündür.

## İTMİŞDİR

Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi Rüstəmli Xəyal Ramiz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU